
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 noyabr 2026-cı il, şənbə
№ 213 (7280)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!



Azərbaycana möhtəşəm zəfərlər qazandıran siyasi qüvvə

YAP-ın yaranmasından 34 il ötür

Bax səh. 4

Bakı-Hanoy: yüksəksəviyyəli həmrəylik və dostluq davam edir





Bax səh. 2

Tarixi dostluqdan strateji tərəfdaşlığa...

Bax səh. 3

Azərbaycan-Vyetnam: İqtisadi münasibətlərdə yeni dövr

Uzun illər müstəmləkəçilik və hərbi müdaxilədən əziyyət çəkən Vyetnam xalqı öz milli azadlıq və istiqlal mücadiləsini uğurlu sonluqla başa çatdıraraq müstəqil dövlətçiliyini bərqərar etməyə nail olmuşdur. Uzun illər yaşanan əzab-əziyyətli dövr sabitlik və rifahla əvəz olunub. Dayanıqlı sabitlik mərhələsində özünün inkişaf yolunu müəyyən edən Vyetnam dövləti Azərbaycanı yaxın dostu və həmrəylik tərəfdaşı seçməklə uzunömürlü tərəqqi arxitekturasını möhkəmləndirib. Vyetnamın müharibədən sonrakı bərpa və inkişaf proseslərində, xüsusilə də, neft-qaz sənayesinin qurulmasında Azərbaycanın əvəzsiz dəstəyi olub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 43 il əvvəl sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri, keçmiş SSRİ ilə Vyetnam arasında münasibətlərin artması ilə yanaşı, Vyetnam xalqının Azərbaycanla faydalı münasibətlərinin formalaşmasında müstəsna rol oynayıb.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında bərabər hüquqa və yaxın dostluğa əsaslanan münasibətlərin yeni səhifəsi açılıb. 2014-cü ildə Prezident İlham Əliyevin Hanoya səfəri zamanı iki dövlət arasında münasibətlərin inkişafında yeni mərhələnin əsasını qoyub, ardınca Vyetnam Prezidentinin Bakıya rəsmi səfəri əməkdaşlıq üçün yeni təməllər yaradıb. Eləcə də, Vyetnam Kommunist Partiyasının Baş katibi To Lamın müstəqil dövlətimizə gerçəkləşən ilk səfəri və imzalanan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat Vyetnam-Azərbaycan əlaqələrinin çoxşaxəli inkişafına dərin hüquqi bünövrə yaradıb.

Prezident İlham Əliyev "Vietnam News Agency" agentliyinə verdiyi müsahibədə Azərbaycan-Vyetnam münasibətlərinin müasir vəziyyətini şərh edərkən bildirib ki, hər iki tərəf siyasi dialoqun və iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi...

Bax səh. 3

Qayıdışın yeni ünvanı: yaşıl meydan...



Bax səh. 4

Ortaq tarix və dəyərlərimiz...

Bax səh. 5

Ağdam Sənaye Parkı böyük sənaye zonasına çevrilir

Bax səh. 6

Tom Lantos İnsan Hüquqları Komissiyası, yoxsa erməni lobbisinin yuvası?

Bax səh. 6

Biznes üçün yeni imkan

Bax səh. 6

Si Cinpinin partiya quruculuğu ideyaları dünya siyasi partiyalarının inkişafı üçün mühüm istiqamətlər verir

26-29 oktyabr tarixlərində 20-ci çağırış Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beşinci plenumu keçirilib. Bu plenum Çin Kommunist Partiyasının yaranmasının 105-ci ildönümü və Çin millətinin böyük dirçəlişinin həyata keçirilməsinin mühüm mərhələsi ilə üst-üstə düşən olduqca mühüm toplantı oldu. Plenumda "Partiyadaxili idarəetmənin hərtərəfli sərtləşdirilməsinin ardıcıl şəkildə irəlilədilməsi ilə bağlı bir sıra mühüm məsələlər haqqında ÇKP MK-nın Qərarı" nəzərdən keçirildi və qəbul edildi, Si Cinpinin partiya quruculuğu ilə bağlı ideyaları isə plenumun kommunikesinə daxil edildi. Böyük əhəmiyyət kəsb edən bu məqam bütün dünyada geniş diqqət cəlb edib. Qərarda yoldaş Si Cinpinin rəhbərlik etdiyi ÇKP MK-nın partiyanın və dövlətin möhkəmləndirilməsi istiqamətində nümayiş etdirdiyi tarixi təşəbbüskarlıq tam şəkildə əks olunub. Bu Qərar yeni dövrdə partiyanın idarə olunması və möhkəmləndirilməsi sahəsində yeni perspektivlərin açılması, eləcə də etnik mənsubiyyətindən asılı olmayaraq ölkədəki bütün xalqların birləşdirilməsi və onlara rəhbərlik edilməsi yolu ilə güclü dövlət quruculuğunun və Çin modernləşməsi vasitəsilə Çin millətinin böyük dirçəlişinin hərtərəfli irəlilədilməsi baxımından mühüm praktiki və uzunmüddətli aparıcı əhəmiyyətə malikdir.

Çin Kommunist Partiyası Çin xalqının xoşbəxtliyini təmin etməyə və Çin xalqının böyük dirçəlişini həyata keçirməyə çalışan, eyni zamanda bəşəriyyətin tərəqqisi və bütün dünyanın ümumi rifahı naminə fəaliyyət göstərən bir partiyadır. ÇKP yeni tipli beynəlxalq münasibətlər əsasında ümumi cəhətləri qoruyub saxlamaqla fərqliliklərin qəbul edilməsini, qarşılıqlı hörməti, bir-birindən öyrənməyi və təcrübə mübadiləsini nəzərdə tutan yeni tipli partiyalararası münasibətlərin formalaşdırılması...

Bax səh. 5

Planetin səbri tükənir



Bax səh. 7

Bakı-Hanoy: yüksəksəviyyəli həmrəylik və dostluq davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Vyetnamın paytaxtı Hanoy şəhərində "İnqilab şəhidləri" abidəsini ziyarət edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Hanoyda Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin məqbərəsini ziyarət edib.





***

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Baş naziri Le Minh Hunq ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Baş nazir Le Minh Hunq dedi:

-Vyetnama rəsmi səfəriniz münasibətilə Zati-aliləri Prezidentə və Azərbaycan Respublikasının yüksəksəviyyəli nümayəndə heyətinə Vyetnam Hökuməti adından ən səmimi təbriklərimi çatdırmaq və sizi salamlamaq mənim üçün böyük şərəfdir.



Biz hər zaman Azərbaycanda baş verən prosesləri yaxından izləmişik və Sizin rəhbərliyinizlə Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi böyük nailiyyətlər münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edirik. İqtisadi inkişafa gəlincə bildirməliyəm ki, 1959-cu ilin iyulunda Prezident Ho Şi Minin Azərbaycana səfəri xalqlarımız arasında dostluq və əməkdaşlıq ənənəsinin təməlini qoyub.

Vyetnam Hökuməti və xalqı milli azadlıq və milli birləşmə uğrunda mübarizəmiz dövründə Azərbaycan xalqının Vyetnama göstərdiyi dəyərli dəstək və yardıma hər zaman yüksək qiymət verib. Biz səmimi-qəlbdən ümidvarıq ki, Azərbaycan bu yeni inkişaf dövründə Vyetnama dəstəyi davam etdirəcək. 2025-ci ilin mayında Baş katib, Prezident To Lamın Azərbaycana tarixi dövlət səfəri və ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi əməkdaşlığımızın yeni zirvələrə çatması və daha əhəmiyyətli, səmərəli olması üçün bir sıra imkanlar yaratdı.

İki ölkənin hökumətləri nazirliklərə və dövlət qurumlarına liderlərimizin əldə etdiyi razılaşmaları və öhdəlikləri fəal şəkildə, yüksək səviyyədə həyata keçirmək üçün tapşırıqlar verib. Məmnunluq hissi ilə bildirirəm ki, artıq ilkin müsbət nəticə əldə olunub.

Zati-aliləri, siyasi və diplomatik əməkdaşlığa gəlincə, biz 2025-ci ilin iyulunda Hanoyda iqtisadi-ticari, elmi və texniki əməkdaşlıq üzrə Vyetnam-Azərbaycan Hökumətlərarası Komissiyanın üçüncü görüşünü, həmçinin birgə Biznes Şurasının birinci görüşünü uğurla keçirdik. Baxmayaraq ikitərəfli ticarət hələ ki, nisbətən aşağı səviyyədədir və sabit artım trayektoriyasına çatmayıb, lakin inkişafa dair ümidverici əlamətlər var.

Hər iki ölkənin bərpaolunan enerji - külək, Günəş enerjisi, ticarət, daşınmaz əmlak və turizm şirkətləri fəaliyyətə başlayıb. Hökumətlərimiz müdafiə, təhlükəsizlik, enerji kimi sahələrdə bütün potensial imkanlarımızı konkret nəticələrə çevirmək, xalqlarımız üçün praktiki faydaları təmin etmək məqsədilə hər zaman çiyin-çiyinə çalışır.

Zati-aliləri, indi isə Sizin fikirlərinizi eşitmək istərdim. Təşəkkür edirəm.

X X X

Sonra çıxış edən Prezident İlham Əliyev dedi:

-Təşəkkür edirəm. Gözəl ölkənizdə olmağa çox şadam. Mənim ölkənizə sonuncu səfərimdən 10 ildən artıq vaxt keçib və mən bir çox dəyişikliklərin şahidiyəm. Ölkənizin sosial və iqtisadi inkişafında bütün nailiyyətlər, həmçinin beynəlxalq arenada böyük uğurlarınız münasibətilə Sizi təbrik edirəm.

Qeyd etdiyiniz kimi, çox şadıq ki, münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Cənab Prezidentin keçənilki səfəri bizim əlaqələrimizin inkişafı baxımından həlledici olmuşdur. O, məni nəzakətlə ölkəsinə dəvət etdi və mən də dəvəti böyük məmnuniyyət hissi ilə qəbul etdim və bir ildən sonra ölkənizdə səfərdəyəm.

Siz ikitərəfli gündəliyimizin çox önəmli məsələlərinə toxundunuz. Münasibətlərimizin tarixi boyunca ölkələrimiz arasında yüksəksəviyyəli həmrəylik və dostluq mövcud olub. Siz Vyetnam Prezidentinin 1959-cu ildə Azərbaycana səfərini qeyd etdiniz. Prezident Ho Şi Min əziz qonaq kimi qarşılanmışdı. Azərbaycan xalqı sizin müstəqillik və azadlıq uğrunda mübarizənizi, xalqınızın işğal dövründə göstərdiyi qəhrəmanlığı qətiyyətlə dəstəkləyib. 2020-ci ildə ərazimizin işğaldan azad edilməsi uğrunda müharibə zamanı biz Vyetnam xalqı və Hökuməti tərəfindən eyni həmrəyliyi gördük, siz bizə güclü dəstək göstərdiniz, o cümlədən BMT Təhlükəsizlik Şurasında.

Sosial-iqtisadi sahəyə gəlincə, müsbət dinamika müşahidə edirik. Lakin əlbəttə, əldə olunan nəticələrlə kifayətlənə bilmərik. Buna baxmayaraq, Sizin qeyd etdiyiniz kimi, hazırda üzərində iş gedən çoxlu önəmli layihələrimiz var, o cümlədən enerji təhlükəsizliyi və daşınmaz əmlak sahələrində.

X X X

Dövlətimizin başçısı Azərbaycan-Vyetnam əlaqələrinin tarixinə toxundu. Azərbaycan Prezidenti bu xüsusda qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin Vyetnama, Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin isə Azərbaycana səfərləri ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayıb.

Beynəlxalq təşkilatlar çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətin həyata keçirildiyini deyən Prezident İlham Əliyev bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə, həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində ölkələrimiz arasında əməkdaşlığı vurğuladı.



Prezident İlham Əliyev 2026-cı ilin oktyabrında Vyetnamın Vitse-prezidenti Vo Thi An Suanın AQEM-in Bakıda keçirilən Zirvə Görüşündə iştirak etmək üçün ölkəmizə səfərini xatırladaraq, onunla apardığı müzakirələrin əhəmiyyətini qeyd etdi.

Baş nazir Le Minh Hunq Azərbaycanda tezliklə Vyetnamın səfirliyinin açılacağını bildirdi.

Dövlətimizin başçısı Vyetnamın bu addımını yüksək qiymətləndirdi. Azərbaycanın Vyetnamda səfirliyinin uzun müddətdir fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, diplomatik nümayəndəliklərin tam fəaliyyəti ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcək.

Baş nazir Le Minh Hunq vyetnamlı mütəxəssislərin Azərbaycanda neft sahəsində təhsil aldıqlarını xatırlatdı, həmin şəxslərin bu gün də Vyetnamın inkişafında mühüm rol oynadıqlarını dedi.

Söhbət zamanı enerji sahəsində əməkdaşlığa toxunuldu, xüsusilə Azərbaycanın neft məhsullarının Vyetnama və Vyetnam ərazisindən region ölkələrinə ixrac imkanları, birgə istehsal sahələri ilə bağlı məsələlər müzakirə olundu.

Baş nazir Azərbaycanın regionda önəmli mövqeyə malik ölkə olduğunu vurğuladı. Bu xüsusda Vyetnamın Azərbaycanın dəstəyi ilə region ölkələri ilə əməkdaşlığının inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə müdafiə sənayesi sahəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan bazarının Vyetnam biznes nümayəndələri üçün cəlbediciliyi və onların burada iştirakda maraqlı olmaları qeyd edildi, tikinti, turizm istiqamətləri üzrə əməkdaşlıq, ölkələrimiz arasında birbaşa aviareyslərin açılması məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı Orta Dəhlizin Vyetnam şirkətlərinin region bazarlarına çıxışı üçün əlverişli imkanlar yaratdığını bildirdi. Bu xüsusda Azərbaycanın Vyetnamla əməkdaşlığa hazır olduğu vurğulandı.

Le Minh Hunq azərbaycanlı həmkarını Vyetnama rəsmi səfərə dəvət etdi.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Hanoyda Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının sədri Çan Tan Man ilə görüşüb.

Görüşdə çıxış edən Milli Assambleyanın sədri Çan Tan Man dedi:

- Sosial və iqtisadi sahələrdə qazandığınız mühüm nailiyyətlər Azərbaycanın regionda və dünyada nüfuzunun artmasına kömək etmişdir. Biz hər zaman Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm veririk. Məmnunluq hissi ilə qeyd edirəm ki, münasibətlərimiz bütün sahələrdə çox yaxşı irəliləyir. Bütün səviyyələrdə nümayəndə heyətləri arasında mübadilələr aparılıb və beynəlxalq arenada səmərəli əlaqələndirmə həyata keçirilib, müdafiə və təhlükəsizlik, iqtisadiyyat və ticarət, energetika, neft və qaz sahələrində əməkdaşlığımız inkişaf edib, xalqlarımız arasında təmaslar fəallaşıb.

Parlamentlərimiz arasında əməkdaşlıq da mühüm rol oynayır. Vyetnamın Milli Assambleyası və Azərbaycanın Milli Məclisi birlikdə sıx çalışıblar və beynəlxalq forumlarda bir-birinə dəstək göstəriblər. Ötən il İsveçrədə parlament sədrlərinin toplantısında mən Milli Məclisin sədri Sahibə Qafarova ilə görüş keçirdim. Arzu edirəm ki, strateji tərəfdaşlığımıza daha çox töhfə vermək üçün iki ölkənin parlamentləri əməkdaşlığını davam etdirsin. Baş nazirimizlə keçirdiyiniz çox məhsuldar görüş münasibətilə Sizi təbrik edirəm. Bildiyimə görə, Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi və Vyetnam Sosialist Respublikasının Prezidenti To Lamın sabah Sizinlə rəsmi görüşü olacaq.

Buyurun, söz Sizindir.

X X X

Sonra çıxış edən Prezident İlham Əliyev dedi:

- Təşəkkür edirəm, cənab Milli Assambleyanın sədri. Əziz dostlar, qonaqpərvərliyiniz üçün təşəkkür edirəm. Sizin gözəl ölkənizi ziyarət etməyə çox şadam. Sizin də qeyd etdiyiniz kimi, Vyetnam və Azərbaycan artıq strateji tərəfdaşlardır. Bu, hökumətlərarası münasibətlərin çox yüksək səviyyəsini nümayiş etdirir.

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi və Prezidentinin ötən il Azərbaycana dövlət səfəri ilə bağlı mənim xoş xatirələrim var. O, məni ölkənizə dəvət etdi və mən yenidən buraya səfər etməyimə şadam. Mən on ildən artıq müddət əvvəl Vyetnamı ziyarət etmişdim və bir çox dəyişiklikləri görürəm. Ölkənizin inkişafında bütün nailiyyətlər münasibətilə Sizi təbrik etmək istəyirəm.

Bəli, düz buyurursunuz, mənim cənab Baş nazirlə çox məhsuldar görüşüm oldu. Biz əsasən qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etdik. Dünyada hazırkı geosiyasi vəziyyəti nəzərə alsaq, qeyd etdiyiniz sahələr xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın ixrac etdiyi enerji resurslarının tədarük zənciri olduqca etibarlıdır. Azərbaycan müxtəlif qitələrdə yerləşən bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Hesab edirəm ki, ikitərəfli münasibətlərimizin önəmli nailiyyətlərindən biri də bizim enerji sahəsində əməkdaşlığın davam etdirilməsi üzrə aydın baxışa və çərçivəyə malik olmağımızdır. Həmişə qeyd etdiyimiz kimi, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir.

X X X

Dövlətimizin başçısı özünün 2014-cü ildə Vyetnama səfərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev ölkələrimizin parlamentləri arasında dialoqun həmişə çox müsbət və nəticəyönümlü olduğunu vurğulayaraq, Azərbaycan Milli Məclisi və Vyetnam Milli Assambleyası sədrlərinin görüşünün parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından rolunu qeyd etdi.

Qoşulmama Hərəkatının parlamentlərarası platformasının Azərbaycanın təşəbbüsü ilə yaradıldığını xatırladan dövlətimizin başçısı bu xüsusda iki ölkənin parlament strukturları arasında əməkdaşlığı vurğuladı.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında tərəfdaşlıq münasibətlərinin qurulduğunu qeyd etdi.

Azərbaycanın Orta Dəhlizin həm vaxt, həm də təhlükəsizlik baxımından beynəlxalq daşımalarda mühüm tranzit marşrutu olduğunu deyən dövlətimizin başçısı bunun Vyetnam şirkətlərinə də daşımalar üçün əlverişli imkanlar yaratdığını bildirdi.

Çan Tan Man ötən il Vyetnam Sosialist Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ölkəmizə səfəri və səfər çərçivəsində qəbul edilmiş "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ın önəminə toxundu.

Milli Assambleyanın sədri ölkələrimizin çoxtərəfli platformalarda yaxından əməkdaşlıq etdiyini deyərək, Vyetnamın Azərbaycanla ASEAN arasında əməkdaşlığın inkişaf etdirilməsinə töhfə verməyə hazır olduğunu dedi.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təsisatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, AQEM çərçivəsində uğurlu əməkdaşlıq etdikləri vurğulandı.

Görüşdə ölkələrimiz arasında müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin müntəzəm səfərlərinin təşkili, iqtisadiyyat, ticarət, enerji, o cümlədən bərpaolunan enerji, insanlararası təmaslar, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Birinci vitse-prezident Mehriban Əliyeva Vyetnamın Vitse-prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Vyetnam Sosialist Respublikasının Vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında münasibətlərin iki xalqın bir neçə onillik tarixi olan dostluğuna əsaslanaraq inkişaf etdiyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycanın və Vyetnamın dövlət başçılarının qarşılıqlı səfərləri müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə, ölkələrimiz arasında siyasi etimadın güclənməsinə səbəb olub. Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən il Azərbaycana səfəri zamanı iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunmasının Azərbaycan-Vyetnam əlaqələrini yeni səviyyəyə yüksəltdiyi bildirilib.







Vyetnamın Vitse-prezidenti Vo Ti An Suan Azərbaycana səfərlərini, o cümlədən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Bakıda keçirilən Zirvə Görüşündə iştirak üçün oktyabrda Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşünü məmnunluqla xatırlayıb.

Görüşdə xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Bu xüsusda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ötən il Vyetnama səfəri zamanı Hanoy Ticarət və Turizm Kollecinə, görmə qabiliyyəti məhdud uşaqlar üçün orta məktəbə göstərilən yardımın iki xalq arasında dostluğun bariz nümunəsi olduğu vurğulanıb.

Görüşdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, qızları Leyla Əliyevaya və Arzu Əliyevaya ənənəvi Vyetnam qəhvəsinin hazırlanma üsulu nümayiş olundu.

Tarixi dostluqdan strateji tərəfdaşlığa...

Azərbaycan ilə Vyetnam arasında çoxşaxəli əlaqələr inkişaf etməkdədir

Prezident İlham Əliyev: Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu





Azərbaycan bu gün Cənubi Qafqazın lider dövləti kimi Avrasiyada yeni iqtisadi-siyasi nizamın formalaşmasında, beynəlxalq münasibətlər sisteminin yenidən təşəkkülündə mühüm rol oynayır. Rəsmi Bakının təşəbbüsləri ilə regionda yeni təhlükəsizlik arxitekturasının qurulması, Şərq ilə Qərb arasında əlaqələrin genişləndirilməsi, Orta Dəhlizin imkanlarının artırılması qlobal miqyasda qarşılıqlı əməkdaşlığa xidmət edir. Azərbaycanın həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən biri də coğrafi baxımdan uzaq, lakin iqtisadi və siyasi baxımdan əhəmiyyətli tərəfdaşlarla ikitərəfli münasibətlərin inkişaf etdirilməsidir. Bu baxımdan Cənub-Şərqi Asiya ölkələri ilə əlaqələrin genişləndirilməsi xüsusi diqqət çəkir.


Xüsusilə Vyetnamla münasibətlərin hazırkı inkişaf mərhələsi diqqətəlayiqdir. Azərbaycanla Vyetnamı yalnız ortaq siyasi maraqlar və iqtisadi əməkdaşlıq imkanları deyil, həm də onilliklərə söykənən tarixi dostluq bağları birləşdirir.

Tarixi bağlar - dostluğun möhkəm təməli

Azərbaycan-Vyetnam münasibətlərinin özünəməxsusluğu ondadır ki, bu əlaqələrin təməli iki dövlət arasında diplomatik münasibətlər qurulmamışdan xeyli əvvəl formalaşıb. Xalqlarımız arasında dostluğun tarixi 1959-cu ilə, Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya səfərinə gedib çıxır. Həmin səfər zamanı Azərbaycanın neft sənayesi təcrübəsi Vyetnam tərəfinin xüsusi marağına səbəb olmuş, ölkəmizin bu sahədəki imkanları gələcək əməkdaşlıq üçün mühüm zəmin yaratmışdı. Vyetnamın müharibədən sonrakı bərpası və inkişafı prosesində azərbaycanlı mütəxəssislərin iştirakı, həmçinin vyetnamlı tələbələrin Azərbaycanda təhsil alması xalqlarımız arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdi.

Bu dostluğun inkişafında Ulu öndər Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfəri xüsusi mərhələ təşkil edir. O zaman SSRİ rəhbərliyində yüksək vəzifə tutan Ulu öndər Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin səfəri çərçivəsində Vyetnamın müxtəlif bölgələrində aparılan görüşlər və əldə olunan razılaşmalar ölkənin iqtisadi potensialının gücləndirilməsinə töhfə verdi. Səfərin əhəmiyyəti yalnız rəsmi görüşlərlə məhdudlaşmırdı - bu, Azərbaycanla Vyetnam arasında qarşılıqlı etimadın və uzunmüddətli əməkdaşlıq ənənəsinin möhkəmlənməsi baxımından da mühüm hadisə idi. Beləliklə, ötən əsrin ortalarında yaranan dostluq bu gün siyasi tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlərin etibarlı tarixi dayağına çevrilib. Prezident İlham Əliyev Vyetnam Xəbər Agentliyinə (VNA) müsahibəsində bildirib ki, Azərbaycan-Vyetnam münasibətlərinin təxminən yetmişillik tarixindən bəhs edərkən, hər şeydən əvvəl, bu dostluğun köklərinə qayıtmaq və onun əsasını qoymuş iki böyük lideri səmimi minnətdarlıq hissi ilə xatırlamaq istəyirəm: "Sözsüz ki, başlanğıc nöqtəsi 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya unudulmaz səfəri idi. 1983-cü il əsl sıçrayışla əlamətdar oldu. Həmin vaxt Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin başçılığı ilə sovet nümayəndə heyəti Vyetnama səfər etdi. Azərbaycan xalqının Ümummilli Liderinin təşəbbüsü ilə bu səfərin müddəti səkkiz günə qədər uzadıldı və ölkənin əsas regionlarını əhatə etdi. Həmin vaxt əldə olunan razılaşmalar Vyetnam iqtisadiyyatının inkişafına güclü təkan verdi və çoxillik əməkdaşlığın istiqamətini müəyyənləşdirdi".





Siyasi dialoq: qarşılıqlı etimad və strateji tərəfdaşlıq

Azərbaycanla Vyetnam arasında siyasi münasibətlər uzunmüddətli dostluq ənənələri üzərində formalaşaraq müstəqillik dövründə yeni məzmun qazanıb. 1992-ci il sentyabrın 23-də diplomatik münasibətlərin qurulması iki ölkə arasında rəsmi siyasi dialoqun başlanğıcı oldu. Sonrakı illərdə qarşılıqlı səfərlər, hökumətlərarası təmaslar və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrin davamlı inkişafını təmin etdi. Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama ilk dövlət səfəri, 2015-ci ilin mayında Vyetnam Prezidenti Çıonq Tan Şanqın Azərbaycana cavab səfəri bu baxımdan mühüm siyasi hadisələr idi. Münasibətlərin inkişafında 2025-ci il xüsusi mərhələ təşkil etdi. Mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri çərçivəsində iki ölkə arasında Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyanat qəbul edilib. Prezident İlham Əliyev sənədin əhəmiyyətini vurğulayaraq bildirib ki, bu, çox ciddi siyasi sənəddir. Dövlət başçısı eyni zamanda qeyd edib ki, əldə olunan razılaşmalar qarşılıqlı əməkdaşlığın daha yüksək səviyyəyə çatmasına xidmət edəcək. Vyetnam Prezidenti To Lam isə yeni sənədi münasibətlər tarixində yeni səhifə açan hadisə kimi qiymətləndirib. İki ölkənin siyasi gündəliyi energetika, investisiya, müdafiə sənayesi, kibertəhlükəsizlik, nəqliyyat, humanitar sahələr və beynəlxalq təşkilatlarda əməkdaşlığı əhatə edir. Vyetnamın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə verdiyi dəstək də siyasi münasibətlərin mühüm istiqamətlərindəndir. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, möhkəm, zamanın sınaqlarından çıxmış dostluğa əsaslanaraq, biz əlaqələrin gücləndirilməsini və qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsini ardıcıl şəkildə davam etdirdik: "2014-cü ildə mənim Vyetnama ilk dövlət səfərim baş tutdu, artıq 2015-ci ilin mayında isə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanq Azərbaycana cavab səfəri etdi. Keçən ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana ilk dövlət səfəri dövlətlərarası münasibətlərimizdə yeni fəsil açdı. Aparılan konstruktiv danışıqlar energetika və investisiyalardan müdafiə və kibertəhlükəsizliyə qədər istiqamətlərin geniş spektrini əhatə etdi. Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu. Bu səfər tərəfdaşlığın dərinləşdirilməsi və onun praktiki məzmunla zənginləşdirilməsi üzrə qarşılıqlı marağı bir daha nümayiş etdirdi".

Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasındakı münasibətlər siyasi əməkdaşlığın mühüm istiqamətlərindəndir

Azərbaycanla Vyetnam arasında münasibətlərin inkişafında hakim siyasi partiyalar arasında əlaqələr də xüsusi əhəmiyyət daşıyır. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyasını birləşdirən münasibətlər iki ölkənin siyasi dialoqunun mühüm institusional istiqamətlərindən biridir. Bu əməkdaşlıq qarşılıqlı siyasi təcrübənin öyrənilməsi, partiya quruculuğu, idarəçilik və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi üçün geniş imkanlar yaradır. Partiyalararası əlaqələrin inkişafında 2023-cü ilin noyabrında imzalanmış Əməkdaşlıq Sazişi mühüm mərhələ oldu. Həmin sənəd YAP və VKP arasında sistemli əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səfərlərin təşkili və daimi təmasların gücləndirilməsi üçün siyasi-hüquqi zəmin yaratdı. Sonrakı dövrdə hər iki partiyanın nümayəndələrinin iştirakı ilə keçirilən görüşlər və tədbirlər bu münasibətlərin praktik məzmununu daha da zənginləşdirdi. 2024-cü ildə Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Le Hoay Çunqun YAP-a ünvanladığı təbrikdə də partiyalararası əlaqələrin inkişafına xüsusi önəm verildiyi vurğulanırdı. 2025-ci ildə YAP sədrinin müavini Tahir Budaqovun Vyetnamda keçirilən "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbirdə iştirakı əməkdaşlığın yeni mərhələyə yüksəldiyini göstərdi. Tərəflər siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafındakı rolunu, beynəlxalq müstəvidə qarşılıqlı dəstəyi və informasiya mübadiləsinin əhəmiyyətini diqqətə çatdırdılar. 2026-cı ilin oktyabrında isə YAP Mərkəzi Aparatında Vyetnam nümayəndə heyəti ilə keçirilən görüşdə əməkdaşlıq sazişindən irəli gələn vəzifələrin icrası müzakirə olundu. Bütün bunlar göstərir ki, YAP-VKP münasibətləri sadəcə siyasi təmaslarla məhdudlaşmır, Azərbaycan-Vyetnam strateji tərəfdaşlığının möhkəmlənməsinə xidmət edən mühüm mexanizmə çevrilir. Prezident müsahibəsində qeyd edib ki, iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasında sıx əməkdaşlıq inkişaf edir.

Humanitar əlaqələr: Heydər Əliyev Fondunun mühüm töhfəsi

Azərbaycan-Vyetnam münasibətlərinin mühüm istiqamətlərindən biri də humanitar, mədəni və təhsil əlaqələridir. Bu sahədə əməkdaşlığın tarixi kökləri xüsusilə zəngindir. Sovet dövründə təxminən 5 min Vyetnam vətəndaşının Azərbaycanda təhsil alması, onların bir qisminin sonradan ölkələrinin inkişafında mühüm rol oynaması xalqlarımız arasında mənəvi bağların formalaşmasına ciddi töhfə verib. Bu gün həmin ənənələr universitetlərarası əməkdaşlıq, tələbə mübadiləsi, mədəni tədbirlər və humanitar təşəbbüslər vasitəsilə davam etdirilir.

Bu prosesdə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir. Fondun Vyetnamda həyata keçirdiyi layihələr təhsil imkanlarının genişləndirilməsi və sosial infrastrukturun inkişafına dəstək baxımından mühüm əhəmiyyət daşıyır. Han Giang əyalətində ibtidai məktəbin tikintisinə dəstək göstərilməsi, təhsil proqramlarına yardım bu fəaliyyətin konkret nümunələridir. 2025-ci ildə Fondun vitse-prezidenti Leyla Əliyevanın Vyetnama səfəri də humanitar əməkdaşlığın genişləndirilməsi baxımından əlamətdar oldu. Səfər çərçivəsində yüksəkvəzifəli şəxslərlə, yaradıcı ictimaiyyətin nümayəndələri və Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşlər keçirildi, Hanoy Ticarət və Turizm Kollecinə maliyyə yardımı göstərildi.

Mədəni əlaqələrin inkişafında da diqqətəlayiq addımlar atılır. Vyetnam günlərinin Azərbaycanda keçirilməsi, 2026-cı ildə Bakı və Qəbələdə təşkil olunan dördüncü festival isə mədəniyyətlərarası dialoqun genişləndirilməsinə xidmət edir. Eyni zamanda, vyetnamlı şair May Van Phanın şeirlər toplusunun Azərbaycanda nəşr olunması ədəbi əlaqələrin də inkişaf etdiyini göstərir. Beləliklə, humanitar əməkdaşlıq dövlətlərarası münasibətləri xalqların gündəlik həyatına və mənəvi dünyasına yaxınlaşdıran mühüm körpü rolunu oynayır. Dövlət başçısı müsahibəsində vurğulayıb ki, humanitar əməkdaşlıq xalqlarımızı və dövlətlərimizi birləşdirən möhkəm körpü rolunu oynayır. Onilliklər ərzində bu əlaqələr təhsil təşəbbüsləri, xeyriyyə layihələri və müntəzəm mədəni mübadilə vasitəsilə davamlı olaraq möhkəmləndirilib: "Heydər Əliyev Fondu bu prosesdə xüsusi rola malikdir və Vyetnamla humanitar münasibətlərin dərinləşməsinə fəal surətdə kömək edir. Fondun fəaliyyət istiqamətləri Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla infrastruktur təşəbbüslərindən tutmuş müxtəlif təhsil proqramlarının dəstəklənməsinə qədər geniş spektri əhatə edir".

Prezident bildirib ki, ümumilikdə, xalqlarımız arasında mədəni dialoq on illərdir davam edir: "Möhkəm dostluq bağları təkcə birgə layihələrdə deyil, həm də çətin anlarda köməyə gəlməyə hazır olmaqda özünü göstərir. 2024-cü ildə Vyetnamda baş verən "Yaqi" fırtınasının dağıdıcı nəticələrini aradan qaldırmaq, həmçinin 2025-ci ildə genişmiqyaslı daşqınların vurduğu ziyanın öhdəsindən gəlmək üçün Azərbaycan maliyyə yardımı göstərib".

Prezident İlham Əliyevin Vyetnama səfəri - strateji tərəfdaşlığın yeni mərhələsi

Prezident İlham Əliyevin noyabrın 19-da Vyetnama rəsmi səfəri Azərbaycan-Vyetnam münasibətlərinin gələcək inkişafı baxımından mühüm siyasi hadisədir. Bu səfər 2025-ci ilin mayında əldə olunmuş strateji tərəfdaşlıq razılaşmalarının davamı olmaqla yanaşı, onların konkret əməkdaşlıq istiqamətləri üzrə həyata keçirilməsinə yeni impuls verəcək. Dövlət başçısının geniş nümayəndə heyəti ilə Hanoya səfəri Azərbaycanın Cənub-Şərqi Asiya regionuna verdiyi əhəmiyyəti də nümayiş etdirir.

Səfərin mühüm əhəmiyyətlərindən biri də ilk növbədə yüksək səviyyəli siyasi dialoqun davam etdirilməsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlıdır. Azərbaycan uzaq coğrafiyada yerləşən, lakin mühüm iqtisadi və siyasi potensiala malik tərəfdaşla əlaqələrini gücləndirməklə xarici siyasətinin coğrafiyasını genişləndirir. Bakı ilə Hanoy arasında strateji tərəfdaşlığın möhkəmlənməsi həm ikitərəfli maraqlara, həm də Asiya ilə Avropa arasında əməkdaşlığın inkişafına xidmət edən mühüm amildir.

P.İSMAYILOV

Azərbaycan-Vyetnam: İqtisadi münasibətlərdə yeni dövr

Uzun illər müstəmləkəçilik və hərbi müdaxilədən əziyyət çəkən Vyetnam xalqı öz milli azadlıq və istiqlal mücadiləsini uğurlu sonluqla başa çatdıraraq müstəqil dövlətçiliyini bərqərar etməyə nail olmuşdur. Uzun illər yaşanan əzab-əziyyətli dövr sabitlik və rifahla əvəz olunub. Dayanıqlı sabitlik mərhələsində özünün inkişaf yolunu müəyyən edən Vyetnam dövləti Azərbaycanı yaxın dostu və həmrəylik tərəfdaşı seçməklə uzunömürlü tərəqqi arxitekturasını möhkəmləndirib. Vyetnamın müharibədən sonrakı bərpa və inkişaf proseslərində, xüsusilə də, neft-qaz sənayesinin qurulmasında Azərbaycanın əvəzsiz dəstəyi olub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 43 il əvvəl sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri, keçmiş SSRİ ilə Vyetnam arasında münasibətlərin artması ilə yanaşı, Vyetnam xalqının Azərbaycanla faydalı münasibətlərinin formalaşmasında müstəsna rol oynayıb.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında bərabər hüquqa və yaxın dostluğa əsaslanan münasibətlərin yeni səhifəsi açılıb. 2014-cü ildə Prezident İlham Əliyevin Hanoya səfəri zamanı iki dövlət arasında münasibətlərin inkişafında yeni mərhələnin əsasını qoyub, ardınca Vyetnam Prezidentinin Bakıya rəsmi səfəri əməkdaşlıq üçün yeni təməllər yaradıb. Eləcə də, Vyetnam Kommunist Partiyasının Baş katibi To Lamın müstəqil dövlətimizə gerçəkləşən ilk səfəri və imzalanan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat Vyetnam-Azərbaycan əlaqələrinin çoxşaxəli inkişafına dərin hüquqi bünövrə yaradıb.

Ticari dövriyyələrin artırılması, investisiya qərarları, logistika bağlantıları...

Prezident İlham Əliyev "Vietnam News Agency" agentliyinə verdiyi müsahibədə Azərbaycan-Vyetnam münasibətlərinin müasir vəziyyətini şərh edərkən bildirib ki, hər iki tərəf siyasi dialoqun və iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi üçün davamlı səylər göstərir, eyni zamanda, investisiya imkanlarının artırılması yollarını müzakirə edir. Tərəflər iqtisadi münasibətlərin inkişafına xüsusi önəm verir və bu istiqamətdə qarşılıqlı təşviqedici addımlar atılır. Bu stimullar ticari mübadilələrin artmasına öz töhfəsini göstərir. 2025-ci ildə ölkələr arasında ticarət dövriyyəsi 153 milyon dollar olub. Ticarət dövriyyəsində 152 milyon dollar Vyetnamdan idxaldır. 2026-cı ilin ilk 9 ayında isə ölkələr arasındakı ticarət dövriyyəsi 136 milyon dollardan çox olub. Həmin müddətdə də əsas ağırlıq Vyetnamdan idxal üzərində qurulub. Mövcud potensial bundan qat-qat böyükdür və iqtisadi mübadilələrin artırılması sahəsində əlavə qərarların qəbul edilməsi nəzərdə tutulur. Xüsusilə də Azərbaycanın Vyetnam bazarlarına daha geniş şəkildə çıxışı, ixracının artırılması imkanlarının reallaşması üçün dərin bazar tədqiqlərinin aparılması planlaşdırılır. Bu sahədə nəqliyyat bağlantıları, xüsusilə də Orta Dəhliz mühüm rol oynaya bilər. Asiyanın müasir nəqliyyat arteriyası olan Yeni İpək Yolu və Orta Dəhliz Azərbaycandan Vyetnama və əks istiqamətdə yükdaşımalar üçün sərfəlidir. Tərəflərin texnoloji transfer və digər innovativ sahələr üzrə də əməkdaşlıq imkanları da yüksək qiymətləndirilir.

Ənənəvi enerji dostluğu müasir mərhələdə



İki dövlətin iqtisadi sahədə əlaqələrinin inkişafına da ənənəvi enerji dostluğu öz mühüm impulslarını verib. Azərbaycan hələ ötən əsrin 70-80-ci illərindən Vyetnamla neft-qaz sahəsində əməkdaşlıq üçün əsaslı sütunlar qurub, 5 minə yaxın vyetnamlı tələbə yüksək ixtisaslı kadr kimi ölkəmizin təhsil ocaqlarında yetişib. Hazırda onlar Vyetnamda məsul dövlət orqanlarında çalışırlar. Eyni zamanda, Azərbaycanın məşhur neft sənayeçiləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında birbaşa rol oynayıblar. 1981-ci ildə yaradılan SSRİ-Vyetnam "Veso Petrol" müştərək müəssisəsinin ilk baş direktoru olan azərbaycanlı Cəlal Məmmədov və digər azərbaycanlı mütəxəssisilər böyük əmək sərf ediblər. Müstəqil Azərbaycanın Vyetnamın neft sənayesinin inkişafında yenə də öz köməyini əsirgəməməsi, 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında imzalanmış müqavilə iqtisadi həmrəylik ruhundan qaynaqlanır.

Ötən il imzalanmış mühüm sənədlər, o cümlədən, energetika və müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumları, SOCAR-la Vyetnam Milli Sənaye - Enerji Qrupu ("PetroVietnam") arasında razılaşma neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi, texniki xidmətlər və mütəxəssis hazırlığı kimi sahələrdə əməkdaşlığı nəzərdə tutur. Eləcə də, elm, texnologiya, innovasiya və rəqəmsal inkişaf sahələrində memorandum və digər sazişlər Azərbaycan- Vyetnam əlaqələrinin yeni inkişaf hədəflərini əks etdirirr. Birgə səylərin artırılması nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı öz səmərəsini verəcək.

E.CƏFƏRLİ







Azərbaycana möhtəşəm zəfərlər qazandıran siyasi qüvvə

YAP-ın yaranmasından 34 il ötür

Qısa müstəqillik tarixində Azərbaycan bir sıra mərhələlərdən keçib. Bu gün isə ölkəmiz dünyadakı kataklizmlər, siyasi və iqtisadi böhranlar şəraitində sabitlik və inkişaf adası kimi diqqət çəkir. Ümummilli məqsədlərinə doğru inamlı addımlar atan və hər sahədə böyük uğurlar qazanan respublikamızın artıq dünya üzrə orta güc dövləti səviyyəsinə yüksəlməsi, regional liderlikdən qlobal proseslərə təsir imkanları artan, müxtəlif qütblər arasında körpülər yaradan dövlət kimi qəbul edilməsi son dərəcə qürurvericidir. Ən böyük uğurumuz isə, heç şübhəsiz ki, 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında parlaq zəfərlər qazanmaqla ərazi bütövlüyümüzü və suverenliyimizi tam təmin etməyimizdir. Bu qələbələr xalqımızın qürur mənbəyi kimi tarixi-mizdə əbədi qalacaq.

Təbii ki, müstəqil Azərbaycan öz inkişafının indiki səviyyəsinə birdən-birə çatmayıb. Yüksəliş yolunun təməli respublikamızda 21 noyabr 1992-ci ildə yeni bir siyasi qüvvənin - Yeni Azərbaycan Partiyasının (YAP) yaranması və cəmi altı aydan sonra bu partiyanın Lideri, bütün varlığı ilə Vətəninə bağlı olan böyük siyasətçi Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın rəhbərliyinə gəlməsi ilə qoyulub. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VIII Qurultayındakı çıxışında bu məqama xüsusi diqqət çəkib. Müstəqil Azərbaycanın uğurlu yol keçməsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı vurğulayıb ki, bizim qələbələrimizin başlanğıc tarixi Yeni Azərbaycan Partiyasının təsis qurultayında baş verdi.

Bu gün Yeni Azərbaycan Partiyasının 21 noyabr 1992-ci ildə ulu diyar Naxçıvanda təsis konfransının keçirilməsindən 34 il ötür. "Ölkəmizin son illər ərzində uğurlu və şərəfli yolunda partiyamızın fəallarının çox böyük payı var, böyük töhfəsi var", - deyə Prezident İlham Əliyev qurultaydakı çıxışında qeyd edib.

İctimai sifariş və xalqın tələbi..

YAP Azərbaycan tarixinin çox çətin dönəmində yaranan partiyadır. Prezident, YAP Sədri İlham Əliyevin bildirdiyi kimi, ölkəmizdə gedən xoşagəlməz proseslər faktiki olaraq Azərbaycanı uğursuz dövlətə çevirirdi.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində XX yüzillikdə ikinci dəfə öz müstəqilliyini elan edən Azərbaycan həyatın bütün sahələrində böhran kimi səciyyələndirliən ağır çətinliklərlə üzüzə qalmışdı. Dövlət idarəçiliyi iflic olmuşdu. İqtisadiyyat tamam çökmüşdü. Sosial sfera, əhalinin gün-güzəranı dözülməsz dərəcədə ağır idi. Qeyri-legitim yolla 1992-ci ilin yazında hakimiyyətə gələn AXC - "Müsavat" iqtidarı cəmi bir il ərzində apardığı naşı siyasəti ilə ölkəni xaos, hərc-mərclik girdabına salmışdı. Ermənistanın işğalının genişlənməsi ilə yanaşı, həm də respublikada vətəndaş qarşıdurması təhlükəsi yaranmışdı. Müstəqilliyimizin itirilməsi tam real idi.

Vəziyyət sağlam qüvvələri, ziyalıları narahat edirdi. Onlar çıxış yolunu görkəmli siyasətçi Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlməsində görürdülər. Beləliklə, 91 nəfər ziyalı siyasi fəaliyyət meydanına atılacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da o dövrdə Naxçıvanda yaşayıb çalışan Heydər Əliyevə müraciət etdi. Həmin müraciət, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər" - deyə Heydər Əliyev ziyalıların tarixli müraciətinə cavabında vurğulayıb.

Yeni Azərbaycan Partiyasının təsis konfransı yuxarıda qeyd olunan tarixdə Naxçıvanda ölkəmizin bütün regionlarını təmsil edən və 550 nəfərdən ibarət olan təşəbbüs qrupunun iştirakı ilə keçirilib. Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Nizamnaməsi və Proqramı qəbul edilib. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçilib. Prezident İlham Əliyev partiyanın təsis konfransının keçirilməsini və YAP-ın Heydər Əliyevin liderliyi ilə Azərbaycanın siyasi səhnəsinə daxil olmasını bir ictimai sifariş kimi dəyərləndirib. "Yeni Azərbaycan Partiyasının yaradılması, yenə də deyirəm, xalqın tələbi idi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması xalqın tələbi idi", - deyə dövlətimizin başçısı vurğulayıb.

YAP-ın təsis konfransından cəmi 6 ay sonra hakimiyyət partiyasına çevrilməsinin alternativi yox idi

YAP-ın Naxçıvanda təsis konfransının keçirilməsindən cəmi 6 ay sonra dünyanın siyasi mübarizə tarixində analoqu olmayan hadisə yaşanıb. Söhbət Yeni Azərbaycan Partiyasının ölkədə iqtidar partiyasına çevrilməsindən gedir. Bunun sirri nədə idi? Axı indiyədək beynəlxalq praktikada belə bir presedent yaşanmamışdı. Ayrı-ayrı ölkələrdə bu və ya digər siyasi qüvvənin hakimiyyət olimpinə yüksəlişi üçün bəzən onilliklər lazım gəlmişdi. YAP-ın təsis konfransından cəmi 6 ay sonra iqtidara gəlməsi özlüyündə bir göstərici idi.

Partiyanın qısa müddətdə təşkilatlanması, yerlərdə yaradılan özək təşkilatları vasitəsilə genişlənməsi və hakim partiyaya çevrilməsi ilk növbədə xalqın partiyanın qurucusu Heydər Əliyevə böyük rəğbəti və inamı ilə şərtlənirdi. Xalqın Heydər Əliyevə dərin inamı isə Onun keçdiyi həyat yolundan və xalq, Vətən naminə göstərdiyi fədəkarlıqlardan qaynaqlanırdı. Heydər Əliyev bacarıqlı və milli ruhlu bir lider olduğunu hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə təsdiqləmişdi. O dövrdə Heydər Əliyev sovet rejiminin ideoloji qadağalarını məharətlə aşaraq milli mədəniyyətin, ədəbiyyatın inkişafına, Azərbaycan dilinin statusunun yüksəldilməsinə, azərbaycanlı gənclərin ittifaqın qabaqcıl ali məktəblərində nadir ixtisaslara yiyələnmələrinə böyük qayğı göstərirdi. Bütün bunlar, eyni zamanda, Heydər Əliyevin şəxsiyyəti, nümunəvi rəhbər obrazı xalqın özünəinam hissini gücləndirirdi. Deyə bilərik ki, o illərdə Heydər Əliyevin fəaliyyəti Azərbaycan xalqının oyanışına, milli dərkinə güclü təkan verdi. Böyük siyasətçinin səpdiyi toxumlar ötən əsrin səksəninci illərinin sonu - doxsanıncı illərinin əvvəlində şərait yarandıqda sağlam cücərtilər verdi. Bir neçə gün bundan əvvəl respublikamızda Milli Dirçəliş Günü qeyd olundu. 1988-ci il noyabrın 17-də xalq keçmiş ittifaq rəhbərliyinin Azərbaycana münasibətdə ədalətsiz siyasət aparmasına etiraz əlaməti olaraq indiki Azadlıq meydanında izdihamlı mitinqə toplaşdı. Dirçəliş Günü də həmi tarixi simvolizə edir. Azadlıq meydanında başlayan etiraz mitinqi sonradan müstəqillik uğrunda dönməz bir xalq hərəkatına çevrildi. Bunun ideya əsaslarını isə Heydər Əliyev qoymuşdu. Eyni zamanda, Heydər Əliyev YAP yaranmazdan öncə Naxçıvandakı fəaliyyəti ilə insanların azadlıq istəyini daha da gücləndirmişdi. Xatırlayaq ki, məhz Onun təşəbbüsü və cəsarəti sayəsində Naxçıvan keçmiş sovet bayrağından imtina etdi, muxtar respublikanın Ali Sovetində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Yenə də Heydər Əliyev böyük cəsarət nümayiş etdirməklə keçmiş ittifaqın bərpası ilə bağlı referendumun Naxçıvan ərazisində keçirilməsinə imkan vermədi. O dövrdə böyük siyasətci daim Azərbaycanın müstəqilliyinin bəyan olunması təklifləri ilə çıxış edirdi.

Bütün bunlar Azərbaycan xalqının qəlbində Heydər Əliyevə sarsılmaz bir inam yaratmışdı. Buna görə də xalqına, Vətəninə bağlı olan belə bir parlaq şəxsiyyətin qurucusu olduğu partiyanın yarandığı vaxtdan cəmi 6 ay sonra hakimiyyət partiyasına çevrilməsinin alternativi yox idi.

Heydər Əliyev böyük tarixi missiya yerinə yetirdi

AXC-"Müsavat" iqtidarının yarıtmaz siyasətindən cana doyan xalq artıq 1993-cü ilin yayında bir nəfər kimi YAP Sədri Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıtmasını tələb edirdi. Başqası olsaydı, həmin xaotik vəziyyətdə həyatını və karyerasını təhlükəyə atmaqdan çəkinərək suların durlmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdi. Çətinliklərlə üzləşən xalqı Ona üz tutmuşdu, güvənmişdi. O, xalqın güvənini, inamını qırmağı Özünə rəva görə bilməzdi və bilmədi də. Bakıya gəlib respublikanın idarəçilik sükanının arxasına keçməyə razılıq verdi. Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə O, Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Və nəhayət, 1993-cü il 3 oktyabr tarixində ölkədə keçirilən prezident seçkilərində inamlı qələbə qazandı. YAP Sədri, Prezident Heydər Əliyev 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək dövlət başçısı kimi fəaliyyətə başladı. Beləliklə də, Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqı öz taleyini öz liderinə əmanət etdi.

Heydər Əliyev bütün varlığı ilə andına sadiq qaldı. Onun hakimiyyətə gəldiyi dövr çox çətin idi və sınaqlarla dolu idi. Həm separatçılıq, həm parçalanma təhlükələri, dövlət çevrilişinə iki cəhd, iqtisadi çətinliklər - bütün bunlar o vaxt reallıq idi. 8 milyon əhalinin 1 milyonu qaçqın-köçkün idi - onlar evsiz-eşiksiz qalmışdılar, çadırlara sığınmışdılar. Bu bir humanitar fəlakət idi və Azərbaycan meydanda tək qalmışdı. Bu kimi çətinliklərin öhdəsindən yalnız Heydər Əliyev kimi dahi siyasətçi gələ bilərdi və gəldi də!

Xalqın yekdil dəstəyi ilə hakimiyyətə gələn Heydər Əliev vaxt itirmədən Azərbaycanın sabahı, müstəqilliyimizin əbədiyaşarlığı üçün müstəsna önəm daşıyan böyük işlərin təməlini qoydu. O, müstəqilliyimizi qorumaqla, ölkəni sabitliyə və inkişafa istiqamətləndirməklə böyük tarixi missiya yerinə yetirmiş oldu. "Ancaq Heydər Əliyev kimi qətiyyətli, cəsarətli dahi şəxsiyyət bütün bunların qabağında dura bilmişdi və Azərbaycanın ərazi bütövlüyünün qorunmasında, Azərbaycanın parçalanmaqdan xilas edilməsində onun amili aparıcı rol oynamışdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Ulu Öndərin siyasi xətti dəyişməz olaraq qalır

Dünya tarixinə nəzər saldıqda görürük ki, siyasi kursunu tez-tez dəyişən ölkələr bir qayda olaraq inkişafla bağlı problemlərlə üzləşirlər. Belə ki, onların siyasətində geridönüş baş verir və təbəddülatlar qaçılmaz olur. Azərbaycan Heydər Əliyev dönəmindən sonra bu problemdən yan keçən və inkişafın ardıcıllığını təmin edən bir dövlətdir. Ulu Öndərin tarixi müraciətini nəzərə alan Azərbaycan xalqı 2003-cü ildə Onun siyasi kursunun layiqli davamçısı İlham Əliyevi ölkə Prezidenti seçib. Azərbaycanın idarəçilik sükanının arxasına keçən İlham Əliyev ilk andiçmə mərasimində söylədiyi nitqində Heydər Əliyev siyasi xəttinə sadiq qalacağına vəd verdi və ötən dövrdə biz bu vədin tam həyata keçirildiyinin şahidi olmuşuq. Prezident İlham Əliyev YAP-ın VIII Qurultayındakı çıxışında da bir daha qətiyyətlə vurğulayıb ki, Ulu Öndərin siyasi xətti dəyişməz olaraq qalır.

YAP 2005-ci ildən İlham Əliyevin liderliyi ilə fəaliyyət göstərir. Partiyanın 2005-ci il 26 mart tarixində keçirilmiş III qurultayında YAP-ın yeni Sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev seçilib. Siyasi kursun varisliyinin təmin edilməsinin nəticəsidir ki, ölkəmiz hədəflərinə doğru inamlı addımlar atır və zirvələrdən-zirvələrə yüksəlir. Dayanıqlı inkişafın təmin olunması Prezident İlham Əliyevin dövlət siyasətinin mütləq prioritetidir. Ölkə boyunca yaradılan müasir infrastruktur Azərbaycanın mənzərəsini dəyişib. Bu infrastruktur obyektləri həm iqtisadi inkişafa güclü təkan verir, həm də əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynayır. İqtisadi müstəqilliyin tam təmin olunması ölkəmizin böyük uğurudur. Qürurverici haldır ki, bu gün Azərbaycan öz problemlərini özü həll edən güclü bir dövlət səviyyəsinə yüksəlib. Eyni zamanda, iqtisadi müstəqillik zəminində siyasi müstəqilliyimiz təmin olunub. Bu gün Azərbaycan sırf milli maraqlara və suverenlik prinsiplərinə əsaslanan siyasət həyata keçirir. Ölkəmiz hansısa bir güc mərkəzindən asılı olmadan mühüm qərarlar verir və bu qərarlar məhz paytaxt Bakıda Prezident İlham Əliyev tərəfindən imzalanır. Bizimlə diktat dili ilə danışmırlar və danışa da bilməzlər.

Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Paralel şəkildə, dünyada Azərbaycan söz sahibi kimi qəbul olunur. Lider həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhval-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Prezident İlham Əliyevin bu keyfiyyətlərinin sayəsində ölkəmizdə uzunmüddətli siyasi sabitlik və həmrəylik mühiti təmin olunub və gələcək inkişaf üçün fundamental zəmin formalaşıb.

Cəmiyyətdə nüfuzu getdikcə artan partiya

Yeni Azərbaycan Partiyasının cari il oktyabrın 2-də keçirilən VIII Qurultayında aparılan müzakirələrə və alınan qərarlara, müəyyənləşdirilən hədəflərə əsaslanaraq YAP-ın keyfiyyətcə yeni bir inkişaf mərhələsinə yüksəldiyini deyə bilərik. Pezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin qurultaydakı çıxışı proqram xarakteri daşıyır. Dövlətimizin başçısı keçilən yola istinad etməklə qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə kimi dəyərləndirib.

Son 23 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının ölkəmizin inkişafı naminə məqsədyönlü fəaliyyəti, xüsusilə də xalqımızın əsas ümummilli ideyasının gerçəkləşməsi - ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması cəmiyyətdə YAP-a böyük nüfuz qazandırıb. Yenə də beynəlxalq təcrübəyə istinad etdikdə görürük ki, iqtidar partiyasının xalq arasında öz nüfuzunu getdikcə yüksəltməsi dünya təcrübəsində az rast gəlinən haldır. Bir sıra ölkələrin təcrübəsindən bəllidir ki, vədlərlə hakimiyyətə gələn partiyalar çox az vaxtdan sonra eniş dövrünə qədəm qoyurlar. Belə hallar iqtidarın yarıtmaz fəaliyyətinin bilavasitə nəticəsidir. YAP-ın timsalında isə fərqli nümunə ortadadır. Yeni Azərbaycan Partiyasnın banisi Heydər Əliyev müstəqilliyimizin əldən getməsinin qarşısını aldı, ölkəni inkişaf və sabitlik yoluna çıxartdı. Hazırda isə Ulu Öndərin yolunu davam etdirən Prezident İlham Əliyevin rəhbərrliyi ilə YAP ölkəmizin inkişafında mühüm rol oynayır ki, bu da cəmiyyətdə ona olan inamı getdikcə daha da artırır. YAP davamlı olaraq həmrəylik təşəbbüslərindən çıxış etməklə ölkəmizdə siyasi konfiqurasiyanın, sarsılmaz iqtidar-xalq birliyinin formalaşmasının mərkəzində dayanır. Partiya öz nümunəsi ilə ölkəmizdə milli birlik uğrunda yeni səhifə açıb və siyasi mübarizə mədəniyyəti formalaşdırırb. YAP qələbələr partiyasıdır. Qatıldığı bütün seçkilərdə böyük üstünlüklə rəqiblərinə qalib gəlməsi cəmiyyətin Yeni Azərbaycan Partiyasına artan inamının əyani göstəricisidir.

Mübariz ABDULLAYEV

Si Cinpinin partiya quruculuğu ideyaları dünya siyasi partiyalarının inkişafı üçün mühüm istiqamətlər verir

Lu Mey

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri





26-29 oktyabr tarixlərində 20-ci çağırış Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beşinci plenumu keçirilib. Bu plenum Çin Kommunist Partiyasının yaranmasının 105-ci ildönümü və Çin millətinin böyük dirçəlişinin həyata keçirilməsinin mühüm mərhələsi ilə üstüstə düşən olduqca mühüm toplantı oldu. Plenumda "Partiyadaxili idarəetmənin hərtərəfli sərtləşdirilməsinin ardıcıl şəkildə irəlilədilməsi ilə bağlı bir sıra mühüm məsələlər haqqında ÇKP MK-nın Qərarı" nəzərdən keçirildi və qəbul edildi, Si Cinpinin partiya quruculuğu ilə bağlı ideyaları isə plenumun kommunikesinə daxil edildi. Böyük əhəmiyyət kəsb edən bu məqam bütün dünyada geniş diqqət cəlb edib. Qərarda yoldaş Si Cinpinin rəhbərlik etdiyi ÇKP MK-nın partiyanın və dövlətin möhkəmləndirilməsi istiqamətində nümayiş etdirdiyi tarixi təşəbbüskarlıq tam şəkildə əks olunub. Bu Qərar yeni dövrdə partiyanın idarə olunması və möhkəmləndirilməsi sahəsində yeni perspektivlərin açılması, eləcə də etnik mənsubiyyətindən asılı olmayaraq ölkədəki bütün xalqların birləşdirilməsi və onlara rəhbərlik edilməsi yolu ilə güclü dövlət quruculuğunun və Çin modernləşməsi vasitəsilə Çin millətinin böyük dirçəlişinin hərtərəfli irəlilədilməsi baxımından mühüm praktiki və uzunmüddətli aparıcı əhəmiyyətə malikdir.

Çin Kommunist Partiyası Çin xalqının xoşbəxtliyini təmin etməyə və Çin xalqının böyük dirçəlişini həyata keçirməyə çalışan, eyni zamanda bəşəriyyətin tərəqqisi və bütün dünyanın ümumi rifahı naminə fəaliyyət göstərən bir partiyadır. ÇKP yeni tipli beynəlxalq münasibətlər əsasında ümumi cəhətləri qoruyub saxlamaqla fərqliliklərin qəbul edilməsini, qarşılıqlı hörməti, bir-birindən öyrənməyi və təcrübə mübadiləsini nəzərdə tutan yeni tipli partiyalararası münasibətlərin formalaşdırılması istiqamətində səylər göstərir. Si Cinpinin partiya quruculuğu ilə bağlı ideyaları Çin reallıqlarından çıxış edərək və bütün dünyanı əhatə edərək, təkcə uzun müddət hakimiyyətdə olan marksist partiyanın öz mütərəqqi mahiyyətini və saflığını necə qoruyub saxlaması, uzunmüddətli hakimiyyətini necə təmin etməsi və Çin modernləşməsi prosesinə necə rəhbərlik etməsi ilə bağlı prinsipial suallara dərindən cavab vermir, həm də son bir əsrdə görülməmiş qlobal dəyişikliklər şəraitində dünya sosialist hərəkatının inkişafına, qlobal partiya idarəçiliyinə və bəşəriyyətin siyasi sivilizasiyasının tərəqqisinə Çin töhfəsi verir, Çin müdrikliyini və Çin həll yollarını təqdim edir. Bütün bunlar bütün dünya üçün böyük və uzunmüddətli əhəmiyyətə malikdir.

Birincisi, bu ideyalar partiyanın ideoloji cəhətdən möhkəmləndirilməsi və onun nəzəri potensialının gücləndirilməsi üçün yeni bir nümunə təqdim edir. Möhkəm idealların və əqidənin formalaşdırılmasını partiyanın ideoloji quruculuğunun ilkin vəzifəsi hesab etmək, partiyanı ardıcıl olaraq onun innovativ nəzəriyyəsi ilə silahlandırmaq, ideoloji baxımdan birləşdirmək və möhkəmləndirmək Si Cinpinin partiya quruculuğu ilə bağlı ideyalarının mühüm müddəalarından biridir. Son illərdə ÇKP nəzəri innovasiyaları fasiləsiz şəkildə irəlilədərək, 3000-dən çox partiya məktəbi əsasında mərkəzi səviyyədən yerli səviyyəyədək geniş şaxələnmiş kadr hazırlığı sistemi formalaşdırıb. Partiya müntəzəm olaraq mərkəzləşdirilmiş ümumpartiya təhsil kampaniyaları və digər fəaliyyət formaları həyata keçirməklə bütün üzvlərini ardıcıl olaraq partiyanın innovativ nəzəri bilikləri ilə təmin edir.

İkincisi, bu ideyalar partiyanın təşkilati quruculuğunun möhkəmləndirilməsinin yeni yolunu göstərir. ÇKP ardıcıl olaraq ÇKP MK-nın mərkəzləşdirilmiş və vahid rəhbərliyi prinsipinə sadiq qalır, bütün fəaliyyət istiqamətlərinin ümumi rəhbərliyini və koordinasiyasını təmin edən bir qüvvə kimi partiyanın rəhbər rolunu tam şəkildə üzə çıxarır. Biz ciddi və nizamlı təşkilati sistem yaratmaq sayəsində bütün səviyyələrdə partiya rəhbərliyinin tam həyata keçirilməsini və qəbul edilən qərarların icrasının yüksək səmərəliliyini təmin edirik, partiyanın təşkilati potensialını dövlət idarəçiliyinin səmərəliliyinə çeviririk və ölkənin idarə olunmasının real nəticələri ilə xalqın etimadını və dəstəyini qazanırıq.

Üçüncüsü, onlar partiyadaxili nəzarət və özünənəzarət sahəsində dünya təcrübəsini zənginləşdirirlər. Korrupsiyaya qarşı mübarizədə ÇKP dövlətin yüksəlişi və tənəzzülü, çiçəklənməsi və məhvi kimi tarixi dövrənin çərçivələrindən çıxmağın yolları barədə tarixi suala iki cavab tapıb: "xalqın hökumət üzərində nəzarətini təmin etmək" və "özünütəkmilləşdirmə inqilabı etmək". Biz partiyadaxili idarəetmənin hərtərəfli sərtləşdirilməsi siyasətini ardıcıl olaraq həyata keçiririk, partiya intizam və dövlət nəzarətinin institusional mexanizmlərini təkmilləşdiririk, misli görünməmiş miqyasda antikorrupsiya mübarizəsinə başlamışıq. "Mərkəzi səkkiz qayda"nın həyata keçirilməsi vasitəsilə partiya və dövlət iş üslubu dəyişdirilib. Biz partiyanın intizamını və iş üslubunu yorulmadan möhkəmləndirir, onun özünütəmizləməsinə, özünütəkmilləşdirməsinə, özünüyeniləməsinə və özünüyüksəltməsinə ardıcıl olaraq nail oluruq.

Dördüncüsü, onlar bütün dünyada sülh və inkişaf naminə ÇKP-nin həll yollarını təklif edir. ÇKP 100 milyondan çox üzvü olan və qlobal təsirə malik dünyanın ən böyük hakim partiyasına çevrilib. ÇKP-nin rəhbərliyi altında Çin iki möcüzəyə - sürətli iqtisadi inkişafa və uzunmüddətli sosial sabitliyə nail olub. Uzun illər ərzində Çinin qlobal iqtisadi artıma verdiyi töhfə orta hesabla təxminən 30 faiz təşkil edib ki, bu da bütün dünyada sülh və tərəqqi işinə böyük töhfə olub. Biz Çin modernləşməsi yolunu uğurla salmışıq, inkişaf etməkdə olan ölkələr üçün modernləşmə yollarının seçimi imkanlarını genişləndirmişik. Sülh, inkişaf, əməkdaşlıq və qarşılıqlı mənfəət bayrağını uca tutaraq, bəşəriyyətin vahid tale icmasının qurulmasını, Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü, Qlobal Sivilizasiya Təşəbbüsünü və Qlobal İdarəetmə Təşəbbüsünü irəli sürmüşük, bütün dünyada sülh və inkişaf işinə getdikcə daha çox müsbət enerji gətiririk.

ÇKP partiyalararası mübadilə və əməkdaşlıq üçün fəal şəkildə qlobal platformalar yaradır, ÇKP ilə dünya siyasi partiyaları arasında yüksək səviyyəli Dialoq, eləcə də ÇKP və dünya siyasi partiyaları liderlərinin Sammitini keçirir, müxtəlif ölkələrin siyasi partiyaları arasında konsensusun formalaşmasına fəal kömək edir. ÇKP dünyanın 170-dən çox ölkəsindən 700-dən çox siyasi partiya və siyasi təşkilatla, o cümlədən Yeni Azərbaycan Partiyası ilə müntəzəm əlaqələr saxlayır, həmçinin partiyalararası kanallar vasitəsilə beyin mərkəzləri və kütləvi informasiya vasitələri arasında müvafiq əməkdaşlıq mexanizmləri yaradır. Bununla da siyasi partiyalar arasında qlobal tərəfdaşlıq münasibətləri şəbəkəsi fasiləsiz olaraq zənginləşir və təkmilləşir, dövlət idarəçiliyi təcrübəsinin mübadiləsi möhkəmlənir və dünyanın bütün ölkələrinin inkişafı və tərəqqisi birgə irəli aparılır.

Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi diqqəti və dəstəyi ilə ölkələrimizin hakim partiyaları arasındakı münasibətlər yüksək intensivliyi, səviyyələrin geniş əhatə dairəsi, məzmun dolğunluğu və formaların müxtəlifliyi ilə seçilir, Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin inkişafına xüsusi töhfə verir. Cari ilin əvvəlindən ÇKP və YAP qarşılıqlı nümayəndə heyətləri mübadiləsini daha da fəallaşdırıb, təcrübə və fikir mübadiləsini möhkəmləndirib, kadr hazırlığı təşkil edib, iki partiyanın gənclər təşkilatları arasında institusional əsasda mübadilələr qurub, həmçinin "partiya plyus" platforması vasitəsilə iki ölkənin beyin mərkəzləri, KİV arasında əməkdaşlığın və humanitar mübadilələrinin inkişafına kömək ediblər. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və ÇKP MK-nın Beynəlxalq əlaqələr şöbəsinin müdirinin sıx əlaqələri dəstəkləməsi və qarşılıqlı səfərlər etməsi iki ölkə və iki partiya arasındakı münasibətlərin inkişafına güclü təkan verib.

Çin tərəfi iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının gələn il 35 ilinin tamam olmasından istifadə edərək, Azərbaycan tərəfi ilə birlikdə bütün sahələrdə əməkdaşlığın daha yüksək keyfiyyət səviyyəsinə çatmasına, daha geniş sahələrə yayılmasına və daha da dərinləşməsinə, eləcə də Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin daha böyük inkişafına nail olunmasına kömək etməyə hazırdır.

Ortaq tarix və dəyərlərimiz...

Bakıda Azərbaycan və İraq türkmanları arasında əlaqələrin inkişafı müzakirə olunub

Bakıda Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının (ABİA) birgə təşkilatçılığı ilə "Azərbaycan və İraq türkmanları arasında ictimai əlaqələr: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransın əsas xarici qonaqları sırasında İraqda yaşayan türkmanları təmsil edən elm və ictimaiyyət nümayəndələri, dövlət qurumlarının təmsilçiləri, eləcə də "Azərbaycan və İraq türkmanları arasında mədəni münasibətlər üzrə Koordinasiya Şurası"nın üzvləri yer alıblar.

Tədbirdə BMTMM-in İdarə Heyətinin sədri, səfir Fərid Şəfiyev müasir dövrdə Azərbaycan və İraq türkmanları arasında ictimai-mədəni əlaqələrin inkişaf mərhələlərindən bəhs edib. O, İraq türkmanlarının ortaq tarix, dil və mədəni bağlarına əsasən Azərbaycan xalqının ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilməli olduğunu diqqətə çatdırıb. F.Şəfiyev bildirib ki, Azərbaycan İraqın ərazi bütövlüyünü və suverenliyini dəstəkləməklə yanaşı, bu ölkədə yaşayan soydaşlarımızın vəziyyəti ilə də maraqlanır. Bu, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri olan dövlətlərin suverenliyinə hörmət prinsipi ilə tam uzlaşır: "Son 20-30 il ərzində İraqda müxtəlif hadisələr, o cümlədən faciəli proseslər baş verib. Azərbaycan isə İraqın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Bu, ölkəmizin xarici siyasətinin əsas xətlərindən biridir. Bununla yanaşı, Yaxın Şərqdə və Cənubi Qafqazda, eləcə də digər coğrafiyalarda müxtəlif ölkələrdə yaşayan çoxsaylı soydaşlarımız var. Təbii ki, onların vəziyyəti ilə maraqlanmağımız və imkan daxilində onlara dəstək göstərməyə çalışmağımız normaldır".

Mərkəzin İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, bu dəstək müxtəlif istiqamətləri əhatə edə bilər. Buraya təhsil proqramları, humanitar təşəbbüslər, eləcə də iqtisadi və siyasi dəstək daxildir. Əsas məqsəd İraqda yaşayan soydaşlarımızın hüquq və imkanlarının genişləndirilməsinə, onların cəmiyyətin həyatında fəal iştirakına töhfə verməkdir. "Siyasi dəstək heç bir halda hər hansı dövlətin daxili işlərinə müdaxilə kimi qiymətləndirilməməlidir. Burada siyasi dəstək dedikdə hər hansı ölkənin daxili işlərinə müdaxilə nəzərdə tutulmur. Söhbət ondan gedir ki, biz İraqda yaşayan soydaşlarımızın həmin ölkənin qanunvericiliyi çərçivəsində bütün hüquqlarla təmin olunmasında maraqlıyıq. Onların hüquqlarının qorunması və cəmiyyət həyatında bərabər imkanlara malik olması bizim üçün vacibdir", - deyə Fərid Şəfiyev bildirib.



"Koordinasiya Şurası"nın sədri, Bağdad Universitetinin professoru, səfir Mahmud Xəlil Cayırlı Azərbaycan və İraq türkmanları arasında ictimai əlaqələrin inkişafında ortaq dil amilinin əhəmiyyətinə, eləcə də İraqda türkman dilinin qarşılaşdığı problemlərə toxunub. Onun sözlərinə görə, Azərbaycan və İraq türkmanları arasında əlaqələrin dərin tarixi, dil və mədəni əsasları var: "Hər iki xalqı birləşdirən ortaq köklər, xüsusilə Oğuz irsi, dil və ləhcə yaxınlığı bu münasibətlərin inkişafı üçün mühüm zəmin yaradır. Bu bağlılığın qorunması və gələcək nəsillərə ötürülməsi, eləcə də mövcud əlaqələrin yeni əməkdaşlıq istiqamətləri üzrə genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır".

Cayırlı qedy edib ki, Azərbaycan və İraq türkmanları arasındakı yaxınlığı, ilk növbədə, dil amili ilə izah etmək mümkündür. Hər iki xalqın dil və ləhcəsindəki oxşarlıqlar onların ortaq Oğuz köklərinə bağlılığını göstərir. "Biz Azərbaycanla birik. Ləhcəmiz, dilimiz yaxındır. Tarixi köklərimizə nəzər salsaq görərik ki, hər ikimiz Oğuz irsinə bağlıyıq. Azərbaycan xalqı ilə İraq türkmanlarını birləşdirən əsas amillərdən biri də məhz bu ortaq dil və ləhcədir", - deyə professor qeyd edib.

ABİA-nın İdarə Heyətinin sədri Elçin Əsgərov isə İraq türkmanları ilə həmçinin, onların tarixi, mədəni irsinin daşıyıcıları olduğunu qeyd edib. Eyni zamanda, onların bu gün də Azərbaycan xalqının mədəni kimliyinin bir parçası və mənəvi qardaşı olaraq qaldığını diqqətə çatdıraraq, gələcəkdə Azərbaycan-İraq türkmanları münasibətlərinin də məhz bu ortaq tarixi və mədəni bağlılıq əsasında inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Tematik mövzular üzrə davam etdirilən müzakirələrdə Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin İdarə Heyəti sədrinin müavini Cavid Vəliyev Azərbaycan-İraq türkmanları münasibətlərində vətəndaş cəmiyyəti institutlarının rolundan bəhs edib.

Konfransın ikinci hissəsində İraqın Təl-Afər şəhərinin meri Xəlil Habiş "Azərbaycan və İraq türkmanları: ortaq tarix və taledən qardaşlaşmış şəhərlərədək", AMEA Şərqşünaslıq İnstitutu direktorunun müavini Elnur Mustafayev "Milli kimlik, dil və tarixi varislik: qloballaşma və çağırışlar", İraq Gənclər və İdman Nazirliyi baş direktorunun müavini Muhəmməd Macul Şəkur Əl-Bayati isə "Azərbaycan və İraq türkmanları arasında gənclər siyasəti və ictimai əməkdaşlıq imkanları" mövzularında çıxış ediblər. Bununla yanaşı, panellər çərçivəsində keçirilən müzakirələrdə İraq parlamentinin IV çağırış deputatı, Nineva regionu Bələdiyyə Komitəsinin sədri Leylal Muhəmməd Əli Yunis, "İraq Türkman Cəbhəsi"nin bölgə sədri Qasim Muhəmməd əl-Bayati və digər iştirakçılar çıxış ediblər. Çıxışlar zamanı Azərbaycan ilə İraq türkmanları arasında münasibətlər müxtəlif aspektlərdən təhlil olunub, əməkdaşlığın genişləndirilməsi, ortaq təşəbbüslərin inkişafı və perspektivlərlə bağlı bir sıra təkliflər səsləndirilib.

Tədbir çərçivəsində bir neçə mühüm nəşr və rəqəmsal layihənin təqdimatı da keçirilib. Belə ki, "İraq türkman dilinin qrammatikası" kitabı İraq türkman dilinin akademik səviyyədə hazırlanmış ilk qrammatika əsəri kimi təqdim olunub. Azərbaycan və İraq türkman alimlərinin birgə iştirakı ilə Azərbaycan dilinin bazasında hazırlanaraq nəşr edilən kitab türkman dilinin elmi əsaslarla öyrənilməsi və tədrisi baxımından mühüm əhəmiyyət daşıyır.

"Türkman dili" tədris vəsaiti isə Azərbaycan və İraq türkman alimlərinin iştirakı ilə hazırlanmış, türkman dilində nəşr olunan ilk tədris vəsaiti kimi diqqət çəkib. İraq orta məktəblərinin I-IV sinif şagirdləri üçün nəzərdə tutulan vəsaitin əsas məqsədi türkman dilinin gənc nəsillərə öyrədilməsi və tədrisinin inkişafına töhfə verməkdir.

Tədbirdə, həmçinin "turkoman.org" və "turkomanheritage.org" portalları təqdim olunub. Bu platformalar son bir əsrdə türkman dili, ədəbiyyatı və tarixi ilə bağlı həm türkman, həm də digər dillərdə nəşr edilmiş kitabların və dövri mətbuat nümunələrinin rəqəmsallaşdırılması, qorunması, araşdırılması və gələcək nəsillərə ötürülməsi məqsədilə yaradılıb. Qeyd edək ki, hər üç layihə Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının (ABİA) dəstəyi ilə həyata keçirilib.

Nardar BAYRAMLI

Tom Lantos İnsan Hüquqları Komissiyası, yoxsa erməni lobbisinin yuvası?

ABŞ Konqresindəki bu komissiyanın üzvləri Azərbaycana qarşı qərəzindən əl çəkmir

Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin olunması beynəlxalq birliyin diqqət mərkəzindədir. İndiyədək Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi ilə bağlı bəzi böyük dövlətlər vasitəçilik təşəbbüsü ilə çıxış ediblər. ABŞ da belə təşəbbüslər irəli sürən dövlətlərdən biridir. Hələ ötən ilin avqustunda baş tutmuş Vaşinqton görüşünə qədər ABŞ rəsmiləri mütəmadi olaraq, Azərbaycana və Ermənistana səfərlər edir, münasibətlərin normallaşdırılması üçün müxtəlif təkliflər verirdilər. Rəsmi Vaşinqtonun təşəbbüsü ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında bir neçə görüş də keçirilmişdi.

Konqresin bəzi üzvləri rəsmi Vaşinqtonun sülh təşəbbüslərinə qarşı...

Donald Tramp ABŞ-da hakimiyyətə qayıtdıqdan sonra Vaşinqton Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması üçün təşəbbüslərini daha da artırdı. Nəticədə ötən ilin avqustunda Vaşinqtonda keçirilən sammitdə vacib nəticələr qazanıldı. Belə ki, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişi paraflandı, eləcə də TRİPP layihəsi (Zəngəzur dəhlizi) ilə bağlı razılaşma əldə edildi. Vaşinqton görüşündən sonra Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün praktiki addımlar atılır. Bütün bunlar regionda dayanıqlı sülhün təmin olunması üçün vacib addımlardır.

Lakin ABŞ administrasiyasının bu mövqeyinə rəğmən, Konqresdə Cənubi Qafqazda sülhün deyil, gərginliyin davam etməsinə maraqlı olan qüvvələr mövcuddur. Konqresin bir sıra üzvlərinin beynəlxalq hüquqa zidd olaraq işğalçı erməni separatizmini dəstəkləməsi qəbulolunmazdır. Həmin konqresmenlər vaxtaşırı olaraq Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq üçün hansısa cəhdlər göstərirlər. Təəssüf ki, ABŞ Konqresi bu ziyanlı "ənənə"sindən əl çəkmək istəmir. Bugünlərdə Konqresin Tom Lantos İnsan Hüquqları Komissiyasında mövcud olmayan "Dağlıq Qarabağ", erməni cinayətkarlar və s. bağlı keçirilmiş dinləmələr də bunun göstəricisidir. Əslində, adıçəkilən komissiyada bu cür təxribatçı tədbirlərin keçirilməsi ilk dəfə deyil. Bundan əvvəl də, bir neçə dəfə Tom Lantos İnsan Hüquqları Komissiyasında bu tipli dinləmələr təşkil olunub. Bu fakt təsdiqləyir ki, əslində həmin komissiya erməni lobbisinin yuvasına çevrilib.

Konqresmenlər ədalət hissini itirməməlidir

ABŞ Konqresində belə dinləmələrin təşkil olunması və çıxış edənlər tərəfindən mövcud faktların açıq şəkildə təhrif olunaraq ölkəmizə qarşı əsassız fikirlərin səsləndirilməsi qəbuledilməzdir. Azərbaycan tərəfindən 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə tam şəkildə uyğun olaraq həyata keçirilib, mülki əhali heç bir zaman hədəfə alınmayıb. Eyni zamanda, Azərbaycan dövləti milliyyətindən, dinindən, dilindən, irqindən və digər mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşının, o cümlədən Qarabağda yaşamış ermənisilli vətəndaşlarının beynəlxalq sənədlərdə və milli qanunvericilikdə təsbit olunmuş hüquq və azadlıqlarının müdafiəsinə təminat verib. Lakin 2023-cü ildə Qarabağda yaşayan ermənilər könüllü surətdə ərazidən köçərək Ermənistana gediblər.

30 ilə yaxın işğal müddətində Ermənistan tərəfindən beynəlxalq hüququn norma və prinsipləri, fundamental insan hüquqlarının davamlı olaraq pozulması, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın vətəndaşımızın taleyi barədə məlumatların ölkəmizə təqdim olunmaması, həmçinin torpaqlarımızın minalarla çirkləndirilməsi, ətraf mühitə ziyan vurulması, ekosid cinayətlərinin törədilməsi faktlarının gözardı edilərək ölkəmizə qarşı ittihamların səsləndirilməsi Azərbaycana münasibətdə ikili standartlar nümayiş etdirilməsinin və məsələyə qərəzli yanaşmanın təzahürüdür. Ermənistanın azərbaycanlılara qarşı əsassız ərazi iddiaları ilə həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpaqlarının 20 faizi bu ölkə tərəfindən işğal olunmuş, həmçinin yüz minlərlə soydaşımız indiki Ermənistan ərazilərindən deportasiyaya məruz qalmışdı. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə tamamilə uyğundur. Həmin qətnamələri ölkəmiz öz gücünə icra edib. Bütün bunların fonunda ABŞ Konqresinin üzvləri ölkəmizə qarşı ikili standartlar, birtərəfli və qərəzli yanaşmalar nümayiş etdirməməlidir. Əksinə, Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə və soyqırımı cinayətlərinə münasibət bildirilməlidir.

Qərbi Azərbaycan İcmasından çağırış...

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması ABŞ Konqresinin Tom Lantos adına İnsan Hüquqları Komissiyasında noyabrın 18-də keçirilmiş dinləmələrdə Azərbaycana qarşı növbəti dəfə qərəzli mövqe nümayiş etdirilməsindən dərin təəssüf hissi keçirdiyini açıqlayıb. İcmanın yaydığı bəyanatda bildirilib ki, İcma əvvəllər də sözügedən Komissiyanın dinləmələrində Azərbaycana qarşı düşmən münasibəti, azərbaycanlıların pozulmuş hüquqlarına etinasızlığı və dini zəmində ayrı-seçkiliyi kəskin tənqid edib. Eyni zamanda, dinləmələrdə iştirak edən "Christian Solidarity International" təşkilatının Azərbaycan əleyhinə qərəzli fəaliyyəti ilə bağlı narahatlıq ifadə edilib. "Təəssüf ki, budəfəki dinləmələr də əvvəlki qərəzli yanaşmanın davamı olub. Tədbirdə Azərbaycan əleyhinə ittihamların səsləndirilməsi, bunun müqabilində Ermənistandan zorla qovulmuş Qərbi azərbaycanlıların hüquqlarına, onların doğma yurdlarına qayıdışı məsələsinə, eləcə də onların dağıdılmış mədəni və dini irsinə yer ayrılmaması açıq-aşkar ikili standartların təzahürüdür. Məsələlərin tarixi ədalət və beynəlxalq hüquq əsasında deyil, dini təəssübkeşlik baxımından təqdim edilməsi, insan hüquqlarının müdafiəsi adı altında fəaliyyət göstərdiyini iddia edən qurumların obyektivliyini ciddi sual altına qoyur" - deyə, bəyanatda vurğulanıb.

Qərbi Azərbaycan İcması Tom Lantos Komissiyasını və "Christian Solidarity International" təşkilatını qərəzli yanaşmadan və ikili standartlardan əl çəkməyə çağırıb. "Biz, eyni zamanda, Tom Lantos Komissiyasını gələcəkdə regionumuzla bağlı təşkil ediləcək dinləmələrə Qərbi Azərbaycan İcmasını da dəvət etməyə və onun da mövqeyini dinləməyə çağırırıq", - deyə İcmanın bəyanatında qeyd olunub.

Nardar BAYRAMLI

Ağdam Sənaye Parkı böyük sənaye zonasına çevrilir

Parkdakı yerli və xarici rezidentlərin ümumi sayı 40-a çatıb

2021-ci ildə yaradılmış Ağdam Sənaye Parkının rezidentlərinin sayı artmaqdadır. Bu günlərdə daha bir investor - "Vertus Engineering CO" MMC bu Sənaye Parkının rezidenti statusunu əldə edib. Bununla da, yerli və xarici biznes strukturlarının sayı artaraq 40-a yaxınlaşıb. "Vertus Engineering CO" tərəfindən parkın ərazisində müxtəlif növ lift və eskalatorların, yanğına davamlı qapıların və məişət təyinatlı avadanlıqların istehsalı layihəsi həyata keçiriləcək. Layihənin investisiya dəyəri 22 milyon manatdır.

Ağdam Sənaye Parkında rezidentlərin sayının artması burada sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradıldığını, dövlətin yerli və xarici iş adamlarına verdiyi institisional dəstəyin təzahürlərini əks etdirir. Bu ərazidə çalışan rezidentlər 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən azaddırlar. Bundan əlavə, istehsal məqsədilə idxal olunan texnika və avadanlıqlar ƏDV və gömrük rüsumlarından azad edilir. Sahibkarlar üçün sosial sığorta haqlarının subsidiyalaşdırılması və digər dəstək mexanizmləri də tətbiq olunur. Bütün bu güzəşt və stimullar biznes üçün istehsal, emal və tədarük proseslərinə olan marağı artırır.

190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı azad ərazilərdə ən böyük sənaye zonalarından biri hesab olunur. Burada "Vertus Engineering CO" daxil olmaqla 38 rezident və 2 qeyri-rezident, ümumilikdə 39 müəssisə qeydiyyata alınıb. Layihələrin ümumi dəyəri 375,5 milyon manat, faktiki yatırılmış investisiyanın məbləği 192,6 milyon manatdır. Layihələr üzrə hazırda 1000-dən çox insan işlə təmin olunub. Rezidentlərin ümumi satış həcmi 2,96 milyard manata, ixracın həcmi isə 132,6 milyon manata çatıb. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.



Parkın sahibkarları ixraca hazırlaşır

Bu sənaye zonasında istehsal edilən məhsullar daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, xarici ölkələrin ixrac bazarları üçün də nəzərdə tutulub. Bu isə parkın qeyri-neft ixracı prosesinə töhfə verdiyini təsdiqləyir. Bir neçə gün əvvəl açılışı olan "ASMC" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) metal məmulatları istehsalı müəssisəsi qeyri-neft sənayesi sektorunda potensial rezidentlərdən biri hesab olunur. Xarici investor - "Almet Holding" ASC tərəfindən ümumi dəyəri 24,9 milyon manat olan layihə üzrə indiyədək 8,8 milyon manat sərmayə yatırılıb. Bundan başqa, Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) tərəfindən subsidiyalaşdırılan 4,7 milyon manata yaxın bank kreditindən istifadə edilib. Təqribən 1,7 hektar ərazidə yerləşən zavodda polad həsir, tikanlı, çəkilmiş, yanmış və sinklənmiş məftil və mismar istehsal olunacaq. Birinci mərhələdə illik istehsal gücü 4 min 920 ton polad həsir, 3 min 480 ton çəkilmiş məftil, 3 min 180 ton mismar, 1800 ton yanmış məftil, 12 min ton məftil və 1080 ton soyuq deformasiya olunmuş armatur təşkil edəcək. İkinci mərhələdə isə illik 10 min ton qalvanikləşdirilmiş və 8 min 240 ton yüksəkkarbonlu çəkilmiş məftil istehsalı planlaşdırılır. Müəssisə İtaliya, Almaniya, Türkiyə və Çinin aparıcı şirkətlərinin avadanlıqları sayəsində rəqabətədavamlı məhsul istehsal etməklə, ixrac gündəliyini formalaşdırmaqdadır.

Noyabrın 7-də açılışı olan "Komfy" MMC də Ağdam Sənaye Parkında potensial istehsal güclərindən biridir. 2024-cü ildə rezident statusu almış MMC-nin illik istehsal gücü 130 min ədəd döşəkdir. Burada müxtəlif ölçüyə, konstruksiyaya və sərtlik dərəcəsinə malik döşəklərlə yanaşı, bonel və paket yay sistemləri də istehsal olunacaq. Müəssisədə Azərbaycanda ilk dəfə "roll-pack" formatında, yəni sıxılaraq rulon şəklində qablaşdırılan döşəklər istehsal ediləcək. Bu, daşınma xərclərini azaltmaqla ixrac imkanlarını genişləndirəcək. Beləliklə də məhsulların daxili bazarla yanaşı, digər ölkələrə satışı nəzərdə tutulur. Müəssisə yerli və xarici hotellərin tələblərinə uyğun döşəklər də istehsal edəcək. Burada 65 nəfər daimi işlə təmin ediləcək. Ümumi dəyəri 2,5 milyon manat olan layihənin maliyyələşdirilməsində özəl investisiya ilə yanaşı, dövlət zəmanəti ilə 700 min manat kredit vəsaitindən istifadə edilib.

Azad ərazilərin iqtisadi inkişafına töhfə

Ağdam Sənaye Parkının fəaliyyətini artırması bu rayonun ümumi istehsal və sənaye potensialının güclənməsinə, bölgədə yaradılan əlavə dəyərin həcminin yüksəlməsinə də öz mühüm təsirlərini göstərməkdədir. Təkcə, 2026-cı ilin yanvar-oktyabr aylarında Ağdam rayonunda 959 milyon 305,6 min manatlıq sənaye məhsulu istehsal olunub ki, onun da mütləq əksəriyyəti Sənaye Parkının payına düşür. Bundan başqa, hesabat dövründə kənd təsərrüfatı məhsullarının ümumi istehsal dəyəri 246 milyon 914,2 min manat təşkil edib. Bunun 159 milyon 90,7 min manatı bitkiçilik, 87 milyon 823,5 min manatı isə heyvandarlıq məhsullarının payına düşüb. Bundan başqa, cari ilin yanvar-sentyabr aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 494 milyon 370 min manat investisiya yönəldilib. Bütün bunlar Ağdamda güclü sənaye-aqrar zəncirin formalaşdığını göstərir.

Parkda MDB, Türkiyə, Çin və digər region ölkələrindən yeni investorların cəlbi nəzərdə tutulur. Belarus biznes icması burada Aqroşəhərciyin yaradılması üzrə layihələndirilmənin hazırlanmasına başlayıb. Belarusun tanınmış sənaye müəssisələri, zavodları, MT3 və MAZ-lar istehsalı üzrə məşhurlaşmış şirkətləri "ağıllı sənaye" texnologiyaları əsasında bu zonada yeni istehsal sahəsi yaratmaq niyyətindədir.

E.CƏFƏRLİ

Biznes üçün yeni imkan

Artıq ödənilmiş vergilərin geri qaytarılması sadələşdirilir

Dövlət Vergi Xidməti artıq ödənilmiş vergilərin geri qaytarılması prosesini sadələşdirib. Yeni mexanizmə əsasən, ixrac fəaliyyəti ilə məşğul olan sənaye və texnologiyalar parklarının rezidentləri olan vergi ödəyiciləri artıq ödəmə etdikdə həmin məbləğin vergi orqanı tərəfindən geri qaytarılmasında elektron alətlərin tətbiqi imkanlarından istifadə ediləcək. Belə ki, həmin ödəmə ilə bağlı məlumatların müəyyən edilməsi və sahibkarların ünvanladığı ərizələrin onların elektron kabinetlərində yerləşdirilməsi mümkün olacaq. Bununla da əlavə proseduarlara və sənədlərin hazırlanmasına, müraciətlərin tərtib edilməsinə və vergi orqanının informasiya sistemlərində mövcud olan məlumatların təkrar təqdim edilməsinə sərf edilən vaxt və resurslar azalacaq. Prosesin elektron mühitdə təşkili müraciətlərin daha operativ icrasına və vergi xidmətlərinin əlçatanlığının artırılmasına imkan yaradacaq.

Dövlət Vergi Xidmətinin Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinin böyük dövlət vergi müfəttişi Fariz Salahov bildirib ki, yeni mexanizm ixrac fəaliyyəti ilə məşğul olan sənaye və texnologiyalar parklarının rezidentləri olan vergi ödəyicilərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, dövriyyə vəsaitlərinin daha səmərəli idarə olunmasına və artıq ödənilmiş vergilərin geri qaytarılması ilə bağlı inzibati prosedurların sadələşdirilməsinə xidmət edir.

Vergi ödəyiciləri əlavə nəzarət tədbirlərinə cəlb edilməyəcək

Müəyyən edilmiş uyğunluq meyarlarına cavab verən ixrac fəaliyyəti ilə məşğul olan sənaye və texnologiyalar parklarının rezidentləri olan vergi ödəyiciləri elektron kabinetlərində yerləşdirilmiş ərizəni təsdiq etməklə əlavə nəzarət tədbirlərinə cəlb edilmədən artıq ödədikləri vergi məbləğlərinin geri qaytarılması prosesini başlada bilirlər. Bu yanaşma risk əsaslı vergi inzibatçılığı prinsiplərinə uyğun olaraq, vergi intizamına riayət edən və aşağı risk səviyyəsinə malik vergi ödəyiciləri üçün prosedurların sadələşdirilməsini, vergi orqanlarının inzibati resurslarının isə daha səmərəli və məqsədyönlü istifadəsini təmin etməyə yönəlib.

Yeni mexanizm dövlət və özəl sektor arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, ixrac fəaliyyəti ilə məşğul olan sənaye və texnologiyalar parklarının rezidentləri olan vergi ödəyicilərinin dəstəklənməsi, eləcə də ixrac və sənaye potensialının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Artıq ödənilmiş vergi məbləğlərinin daha çevik qaytarılması maliyyə planlaşdırmasını asanlaşdırır, dövriyyə vəsaitlərinin əlçatanlığını artırır, biznes fəaliyyətinin davamlılığına və investisiya imkanlarının genişlənməsinə müsbət təsir göstərir.



Vergi Xidməti vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, hesabatlılıqla bağlı inzibati yükün azaldılması və prosedurların sadələşdirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi ilə vergi inzibatçılığının rəqəmsallaşdırılması, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi istiqamətində də tədbirləri davam etdirmək niyyətindədir. Xüsusilə, vergi hesabatlarının təqdim edilməsi və vergi öhdəliklərinin yerinə yetirilməsi proseslərinin avtomatlaşdırılması, mövcud informasiya bazaları əsasında hesabat və müraciət formalarının əvvəlcədən hazırlanması yeni islahat tədbirlərinə daxildir.

Mikrosahibkarlar vergi bəyannamələrini mobil həllərlə təqdim edəcəklər

Bu istiqamətdə digər mühüm yenilik vergi bəyannaməsinin mövcud məlumatlar əsasında avtomatik təqdim edilməsidir. Həmin mexanizmə əsasən, ilk mərhələdə mikrosahibkarlar 2027-ci ildən etibarən, vergi bəyannamələrini mobil həllərlə avtomatik təqdim edə biləcəklər. Bu məqsədlə, "İnzibati icraat haqqında" qanunvericiliyin tətbiqi və inzibati proseslərin sadələşdirilməsi nəzərdə tutur. Bu proses biznesin təsdiqi üçün vergi və bank məlumatlarından istifadə edilməsini də nəzərdə tutulur. Belə ki, vergi orqanlarının və bankların elektron sistemlərə inteqrasiyası nəzərə alınaraq, artıq biznesin təsdiqi prosesinin avtomatik qaydada həyata keçirilməsi mümkün olacaq. Digər yenilik isə mikro və kiçik sahibkarlıq subyektlərinin mövcud zonadan daha geniş imkanlar əldə etməsi və daha çox məşğulluğun təmin olunmasıdır. Əsas hədəf inzibati araşdırmaların minimum səviyyədə aparılması və onların maksimum dərəcədə riskəsaslı olmasının təmin edilməsidir. Bu isə nəticədə vergi və digər qanunvericilik tələblərinin biznes üçün daha asan və əlçatan olmasını təmin edəcək.

Ümumilikdə, yeni mexanizmlər vergi xidmətlərinin rəqəmsallaşdırılması, risk əsaslı inzibatçılığın inkişaf etdirilməsi, könüllü vergi əməletməsinin təşviqi və sahibkarlar üçün daha əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən islahatların mühüm tərkib hissəsi hesab olunur.

E.CƏFƏRLİ

21 noyabr 2026-cı il, şənbə № 213 (7280)

Qayıdışın yeni ünvanı: yaşıl meydan...

Bu dəfə Xankəndidə sakitliyi azarkeşlərin səsi pozdu

Bir vaxtlar səssizliyə qərq olmuş Xankəndi stadionunda bu dəfə futbol topunun səsi, azarkeşlərin alqışları və qələbə uğrunda mübarizənin həyəcanı eşidilirdi. Tribunlarda yerini alan insanlar yalnız iki komandanın qarşılaşmasını izləmək üçün deyil, həm də doğma şəhərin yeni həyatına şahidlik etmək üçün buraya toplaşmışdılar. Yaşıl



meydanın hər qarışı sanki bir qayıdışın, yenidən başlanğıcın və gələcəyə uzanan yolun hekayəsini danışırdı.

Noyabrın 19-da Xankəndidə keçirilən "Xankəndi" - "Karvan-Yevlax" oyunu məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyırdı. Şəhərin yenilənmiş stadionunda illər sonra futbol həyəcanı yenidən yaşanırdı. Noyabrın 7-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı keçirilən stadionda baş tutan ilk rəsmi futbol qarşılaşması idman hadisəsindən daha artıq məna kəsb edirdi.

Xankəndiyə doğru uzanan yolun özü belə insanda fərqli hisslər oyadırdı. Bir zamanlar müharibənin, dağıntıların və ayrılığın adı ilə xatırlanan bu şəhərdə indi idmanın, rəqabətin, azarkeş coşğusunun səsi eşidilir. Stadionun qapısından içəri daxil olanda isə açıq-aydın hiss olunurdu ki, burada baş tutan qarşılaşma adi çempionat oyunu olmaqdan daha böyük məna daşıyır.

Oyundan əvvəl yaşanan ən təsirli an...

Qarşılaşmanın başlanmasını gözləyən azarkeşlər üçün günün ən yaddaqalan məqamlarından biri hələ hakim fitindən əvvəl yaşandı. Belə ki, meydanda ilk topa rəmzi toxunuş mərasimi keçirildi. Bu şərəf 44 günlük Vətən müharibəsində şəhid olmuş Fikrət Məmmədovun oğlu İbrahimə həvalə edildi.

Xankəndi futbolunun veteranları Samir Ələkbərov, Emin Salmanov və Münis Abdullayevin müşayiəti ilə meydana çıxan İbrahim topa ilk toxunuşu etdi. Bu, sadəcə, oyunun başlanğıcını bildirən simvolik bir mərasim deyildi. Həmin an şəhidlərimizin əziz xatirəsinə ehtiramın, onların övladlarının cəmiyyətimizdə tutduğu xüsusi yerin ifadəsi idi.

Kiçik bir uşağın ayağından hərəkətə gələn top sanki böyük bir mənəvi mesaj daşıyırdı: bu torpaqlarda gələcək nəsillər böyüyür, arzular qurulur, həyat davam edir. Şəhid övladının Xankəndi stadionunun yaşıl meydanında belə bir məqamın qəhrəmanına çevrilməsi günün emosional yaddaşında xüsusi yer tutdu.



Yaşıl meydanda futbol həyəcanı

Rəmzi mərasimdən sonra diqqətlər meydanda mübarizəyə kökləndi. Azərbaycan I Liqasının VIII turu çərçivəsində keçirilən qarşılaşmada ilk dəqiqələrdən hər iki komanda oyuna ciddi yanaşdığını nümayiş etdirdi. Meydan sahibləri doğma stadionda azarkeşlərinin dəstəyini qələbəyə çevirməyə çalışır, qonaq komanda isə təşəbbüsü ələ almaq üçün mübarizə aparırdı. İlk hissədə komandalar fərqlənə bilmədi və fasiləyə qolsuz bərabərliklə yollandılar.

İkinci hissədə isə oyunun taleyi dəyişdi. "Karvan-Yevlax"ın futbolçusu İbrahim Əliyev 67-ci dəqiqədə hesabı açdı. On dəqiqə sonra, 77-ci dəqiqədə Obicon Onyeka fərqi iki topa çatdırdı. Beləliklə, qarşılaşma Yevlax təmsilçisinin 2:0 hesablı qələbəsi ilə başa çatdı.


Nəticə etibarilə meydan sahibləri istədikləri nəticəni əldə edə bilməsələr də, həmin gün Xankəndi stadionunda yaşananların əhəmiyyəti hesab tablosundakı rəqəmlərlə ölçülmürdü.

Stadiondan daha artıq məna daşıyan məkan

Xankəndi şəhər stadionunun yenidən qurulması və burada rəsmi futbol qarşılaşmasının keçirilməsi Qarabağda həyatın bütün sahələrdə canlanmasının daha bir göstəricisidir. Stadionun tribunlarında əyləşən azarkeşlər, meydana çıxan futbolçular, uşaqların sevinci və futbol ətrafında yaranan birlik mühiti bu şəhərdə yeni bir həyat ritminin formalaşdığını göstərirdi.

Futbolun gözəlliyi də elə bundadır: o, insanları bir araya gətirir, fərqli duyğuları eyni sevincdə birləşdirir. Xankəndidə keçirilən bu qarşılaşma isə idman mübarizəsi ilə yanaşı, şəhərin dirçəlişini, insanların doğma torpaqlarda gündəlik həyata qayıdışını simvolizə edən hadisələrdən biri kimi yadda qaldı.

Günün sonunda stadiondan ayrılarkən bir həqiqət daha aydın görünürdü: futbol meydanında bir komanda qalib gəldi, digəri



məğlub oldu. Amma Xankəndidə futbolun yenidən nəfəs alması, şəhid övladının rəmzi ilk toxunuşu və minlərlə insanın eyni həyəcanı bölüşməsi həmin günün ən böyük mənəvi qələbəsi idi...

Yeganə BAYRAMOVA

Planetin səbri tükənir

İqlim böhranı bəşəriyyəti hansı fəlakətə aparır?

İnsanlıq tarixində ilk dəfədir ki, bütün dünya eyni təhlükəylə üz-üzədir, amma bu təhlükəyə qarşı mübarizədə vahid mövqeyə gələ bilmir. Bir ölkədə meşələr yanır, digərində çaylar quruyur, başqa bir yerdə şəhərləri sel basır. Fermerlər məhsullarını itirir, insanlar içməli su tapmaqda çətinlik çəkir, dənizlərin səviyyəsi dəyişir. Bütün bunların fonunda dövlətlər neft və qazdan imtina etməyin iqtisadi nəticələrini, enerji bazarındakı rəqabəti və özlərinin milli maraqlarını müzakirə edir. Planetin temperaturu yüksəlir, siyasətin qərar vermə sürəti isə hələ də çox aşağıdır.

İnsanlar iqlim dəyişikliyini çox vaxt uzaq gələcəyin problemi kimi təsəvvür edirlər. Sanki söhbət bir neçə onillikdən sonra baş verəcək hadisələrdən, buzlaqların əriməsindən, okean səviyyəsinin yüksəlməsindən və gələcək nəsillərin qarşılaşacağı çətinliklərdən gedir. Halbuki iqlim böhranı artıq gələcəyin xəbəri deyil, elə günü bu gün kənd təsərrüfatına, ərzaq qiymətlərinə, içməli su ehtiyatlarına, şəhərlərin təhlükəsizliyinə, insanların sağlamlığına və dövlətlərin iqtisadiyyatına təsir göstərir. Ən narahatedici məqamsa budur ki, iqlim dəyişikliyi təkcə havanın istiləşməsi demək deyil, bu, bütöv təbiət sisteminin tarazlığının pozulmasıdır. Temperatur yüksəldikcə su dövranı dəyişir, bəzi ərazilərdə quraqlıq güclənir, digərlərində intensiv yağıntılar və daşqınlar artır. İsti hava dalğaları insan sağlamlığına təhlükə yaradır, meşə yanğınları genişlənir, kənd təsərrüfatında məhsuldarlıq risk altına düşür. Bir sözlə, iqlim böhranı təbiətin sərhədlərini aşaraq social-iqtisadi böhrana çevrilir.

Termometrin göstərdiyi rəqəmlər həyəcan siqnalıdır

Dünya Meteorologiya Təşkilatının (WMO) 9 noyabr 2026-cı ildə açıqladığı iqlim hesabatı vəziyyətin nə qədər ciddi olduğunu göstərir. Hesabata görə, 2015-2026-cı illər müşahidələr tarixində ən isti 12 illik dövr kimi qeydə alınmağa doğru gedir. 2026-cı ilin yanvar-sentyabr aylarında qlobal orta temperatur sənayedən əvvəlki dövrün (1850-1900) orta göstəricisindən təxminən 1,47 dərəcə yüksək olub. Sonrakı aylarda güclənən El-Ninyo hadisəsinin temperaturu daha da artıracağı gözlənir. Bu rəqəmləri düzgün anlamaq vacibdir. Paris Sazişində nəzərdə tutulan 1,5 dərəcə həddi bir ilin temperatur göstəricisinə yox, uzunmüddətli qlobal istiləşməyə aiddir. Lakin ayrı-ayrı illərdə bu həddin aşılması və bir neçə ilin orta göstəricisinin də 1,5 dərəcəni keçməsi təhlükənin nə qədər yaxınlaşdığını göstərir.

Avropa İttifaqının Kopernik İqlim Dəyişikliyi Xidmətinin 11 noyabr tarixli qiymətləndirməsinə əsasən, 2026-cı ilin sənayedən əvvəlki dövrlə müqayisədə 1,5 dərəcədən artıq isti keçəcəyi artıq demək olar ki, qaçılmazdır. 2023-2026-cı illərin dördillik orta temperaturunun da bu həddi aşacağı gözlənir. Həmin qurumun məlumatına görə, 2026-cı ilin oktyabr ayında qlobal orta səth temperaturu 15,35 dərəcəyə çataraq sənayedən əvvəlki orta göstəricini 1,75 dərəcə üstələyib. Bu, müşahidələr tarixində ən isti oktyabr ayı olub. Bəs 1,5 dərəcə niyə bu qədər vacibdir? Çünki temperaturun hər əlavə artımı təbiətdəki riskləri gücləndirir. İsti hava dalğalarının daha tez-tez və daha intensiv baş verməsi, buzlaqların əriməsi, dəniz səviyyəsinin yüksəlməsi, ekosistemlərin zədələnməsi və bəzi ərazilərdə su qıtlığının dərinləşməsi ehtimalı artır. Söhbət planetin bir gündə məhv olmasından getmir; söhbət insanların yaşamaq, işləmək, qida və su əldə etmək imkanlarının getdikcə çətinləşməsindən gedir.

El-Ninyo: təbiətin xəbərdarlığı daha da güclənir

2026-cı ilin iqlim gündəliyində xüsusi yer tutan məsələlərdən biri də El-Ninyo hadisəsidir. Bu, Sakit okeanın ekvatorial hissəsində okean səthinin temperaturunun dövri olaraq yüksəlməsiylə bağlı təbii iqlim hadisəsidir. El-Ninyo dünyanın müxtəlif bölgələrində yağıntıların, temperaturun və hava şəraitinin dəyişməsinə təsir göstərə bilir. Ümumdünya Meteorologiya Təşkilatının (World Meteorological Organization - WMO) məlumatına görə, El-Ninyo 2026-cı ilin avqustundan etibarən güclənib və dekabr ayında rekord səviyyəyə yaxınlaşa bilər. Bu hadisə 2027-ci ilə qədər dünyanın müxtəlif bölgələrində güclü istilər, quraqlıq və intensiv yağıntı risklərini artıra bilər. Eyni zamanda dünya okeanlarının istilik ehtiyatı və qlobal dəniz səviyyəsi müşahidələr tarixində rekord göstəricilərə çatıb. El-Ninyo iqlim dəyişikliyinin özü deyil, təbii iqlim hadisəsidir. Lakin insan fəaliyyəti nəticəsində artıq isinmiş planetdə baş verəndə mövcud istilik yükünü və ekstremal hava risklərini daha da gücləndirə bilər; başqa sözlə, təbii hadisəylə insan fəaliyyəti nəticəsində yaranan uzunmüddətli istiləşmə bir-birinin təsirini artıra bilər. Dünya bu gün yalnız daha isti yaylara hazırlaşmır, planetimiz daha mürəkkəb hava şəraitinə, su ehtiyatlarının qeyri-sabitliyinə, kənd təsərrüfatında risklərin artmasına və infrastrukturun daha ciddi sınaqlarla üzləşməsinə hazır olmalıdır.

COP31: dünya liderləri Antalyada nəyi müzakirə edirlər?

Məhz belə bir vaxtda BMT-nin İqlim Dəyişikliyi üzrə 31-ci Konfransı - COP31 9-20 noyabr 2026-cı il tarixlərində Türkiyənin Antalya şəhərində keçirilir. Bu ilki konfransın əsas məsələləri əvvəlki illərdə verilmiş vədlərin icrası, istixana qazı emissiyalarının azaldılması, iqlimə uyğunlaşma, maliyyə dəstəyi və fosil yanacaqlardan asılılığın azaldılmasıdır. Türkiyə konfransa ev sahibliyi, Avstraliya isə danışıqlar prosesinə rəhbərlik edir. COP konfransları sadəcə dövlət başçılarının və nazirlərin çıxış etdiyi tədbirlər deyil; burada dünyanın təxminən 200 ölkəsi iqlim siyasətinin gələcək istiqamətlərini müzakirə edir. Söhbət enerji istehsalından tutmuş sənayeyə, nəqliyyatdan kənd təsərrüfatına, maliyyə sistemindən şəhərsalma siyasətinə qədər geniş sahələrə təsir göstərən qərarlardan gedir. Ancaq bu ilki müzakirələrdə də ciddi ziddiyyətlər var. Bəzi dövlətlər neft, qaz və kömürdən asılılığın azaldılması üçün daha konkret öhdəliklər tələb edir, digər ölkələr belə öhdəliklərin iqtisadiyyatlarına, sənayelərinə və enerji təhlükəsizliyinə mənfi təsir göstərə biləcəyini bildirir. "Reuters"-in 14 noyabr tarixli məlumatına görə, BMT-nin iqlim məsələləri üzrə rəhbəri Saymon Stil danışıqların ikinci həftəsinə keçildiyi bir vaxtda ölkələri ən çətin məsələlər üzrə sürətlə razılığa gəlməyə və prosesi süni şəkildə ləngitməməyə çağırıb. Agentliyin məlumatında neft və qaz istehsal edən, eyni zamanda bu resurslardan geniş istifadə edən bəzi ölkələrin fosil yanacaqlardan uzaqlaşmaqla bağlı yeni və konkret hədəfləri qəbul etməkdə tərəddüd keçirdiyi bildirilir. Bu ziddiyyətin səbəbini anlamaq olar: neft və qazdan asılı dövlətlər üçün enerji keçidi yalnız ekoloji məsələ deyil, büdcə gəlirləri, iş yerləri, sənaye, ixrac, milli təhlükəsizlik və geosiyasi təsir məsələsidir. Bir ölkə bu gün elektrik enerjisinin böyük hissəsini kömürdən alırsa, həmin sistemi qısa müddətdə dəyişmək onun iqtisadiyyatına ciddi xərc yarada bilər. İnkişaf etməkdə olan ölkələr isə haqlı olaraq soruşur: sənayeləşmə dövründə böyük həcmdə karbon emissiyası yaratmış zəngin dövlətlərlə hələ inkişaf etməkdə olan ölkələrin üzərinə eyni məsuliyyət qoyulmalıdırmı? Məhz buna görə iqlim danışıqlarının ən çətin mövzularından biri maliyyə məsələsidir.

Böhranın pulunu kim ödəməlidir?

Təsəvvür edək ki, bir ada dövləti okean səviyyəsinin yüksəlməsi səbəbindən yaşayış ərazilərini itirir. Başqa bir ölkədə quraqlıq kənd təsərrüfatını məhv edir. Üçüncü dövlətdə güclü daşqınlar yolları, körpüləri və yaşayış evlərini dağıdır. Bu ölkələrin bir çoxunun qlobal emissiyalarda payı böyük sənaye dövlətləriylə müqayisəyə gəlməz, lakin iqlim dəyişikliyinin nəticələrini onlar daşımalı olur. İnkişaf etməkdə olan ölkələrin əsas tələbi budur: iqlim böhranına daha çox "töhfə" vermiş və maliyyə imkanları geniş olan dövlətlər iqlimə uyğunlaşma, təmiz enerji və fəlakətlərdən sonra bərpa üçün daha ciddi maliyyə dəstəyi göstərməlidir. Bu yardımın kredit şəklində verilməsi də mübahisə doğurur, çünki təbii fəlakət nəticəsində iqtisadiyyatı zərər çəkmiş ölkə yeni borc götürərək özünü bərpa etməyə məcbur qala bilər. Beləliklə, iqlim böhranının yaratdığı zərər həmin ölkənin borc yükünü daha da artırır. "Associated Press"-in COP31-in başlanmasıyla bağlı materialında inkişaf etməkdə olan dövlətlərin zəngin ölkələrdən iqlimə uyğunlaşma və fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün daha aydın maliyyə öhdəlikləri tələb etdiyi vurğulanır. Əslində, iqlim maliyyəsi xeyriyyəçilik məsələsi kimi təqdim edilməməlidir; bu, qlobal problemin həlli üçün ortaq məsuliyyət məsələsidir. İqlim böhranı sərhəd tanımır. Bir ölkənin emissiyaları digər ölkələrin hava sisteminə, su ehtiyatlarına, kənd təsərrüfatına və sağlamlığına təsir göstərə bilər. Deməli, onunla mübarizə də yalnız ayrı-ayrı dövlətlərin ümidinə buraxıla bilməz.

Neftdən imtina etmək asandırmı? Dünya niyə qərar verə bilmir?

İqlim müzakirələrinin ən mürəkkəb tərəfi fosil yanacaqlarla bağlıdır. Neft, qaz və kömür hələ də dünya iqtisadiyyatının əsas enerji mənbələrindəndir. Elektrik stansiyaları, sənaye müəssisələri, nəqliyyat, istilik sistemləri və bir çox istehsal sahələri bu resurslardan asılıdır. Bir tərəfdən atmosferə buraxılan istixana qazlarının azaldılması zərurəti artır, digər tərəfdən dünya iqtisadiyyatının enerji tələbatı yüksəlməkdə davam edir. Enerji qiymətlərində kəskin artım ailələrin xərclərinə, müəssisələrin istehsalına və dövlətlərin iqtisadi sabitliyinə təsir göstərir. Buna görə də enerji keçidi yalnız ekoloji məqsədlərlə yox, enerji təhlükəsizliyi və sosial ədalət prinsipləriylə birlikdə həyata keçirilməlidir.

COP31-də Türkiyənin gündəmə gətirdiyi əsas təşəbbüslərdən biri qlobal elektrikləşmənin genişləndirilməsidir. Bu yanaşma nəqliyyatın, istilik sistemlərinin və sənayenin elektrik enerjisinə keçidini sürətləndirməyi nəzərdə tutur. Lakin "Reuters"-in məlumatına görə, təklif olunan yanaşma istifadə edilən elektrik enerjisinin mütləq bərpa olunan mənbələrdən istehsalını tələb etmir. Bu isə tənqidçilərin narahatlığına səbəb olur: əgər elektrik enerjisi yenə kömür və qaz hesabına istehsal edilərsə, sadəcə elektrikləşmə emissiyaları lazımi səviyyədə azaltmaya bilər. Bu, çox vacib məqamdır. Elektrikli avtomobilin istifadəsi yalnız onun enerjisi təmiz mənbədən istehsal ediləndə iqlim baxımından daha böyük üstünlük yaradır. Günəş və külək enerjisiylə işləyən elektrik şəbəkəsi ilə kömürdən asılı elektrik sistemi eyni nəticəni vermir. Deməli, məsələ yalnız neftdən-qazdan imtina etmək deyil; əsas məsələ onların yerini hansı enerji mənbələrinin, hansı sürətlə və hansı iqtisadi şərtlərlə tutacağıdır.

Digər tərəfdən, ABŞ-ın COP31 danışıqlarında iştirak etməməsi də müzakirələrin siyasi mənzərəsinə təsir göstərir. "Associated Press" və "Reuters"-in məlumatına görə, ABŞ prezidenti Donald Trampın administrasiyası iqlim danışıqlarında iştirakdan ardıcıl olaraq ikinci il kənarda qalıb. Bu, dünyanın ən böyük iqtisadiyyatlarından və ən böyük emissiya mənbələrindən birinin qlobal iqlim danışıqlarında iştirak etməməsi baxımından mühüm məsələdir. Beləliklə, dünya iqlim böhranına qarşı mübarizədə elmi baxımdan zəruri olan addımları bilsə də, siyasi və iqtisadi maraqlar ortaq qərarların qəbulunu çətinləşdirir.

Xəzər dənizi: Azərbaycan üçün görünən təhlükə

İqlim böhranı haqqında danışarkən Azərbaycanı problemdən kənarda təsəvvür etmək mümkün deyil. Ölkəmiz qlobal istiləşmənin nəticələrindən, su ehtiyatlarının azalmasından, yağıntı rejiminin dəyişməsindən, quraqlıqdan və Xəzər dənizinin səviyyəsindəki dəyişikliklərdən təsirlənir. Xüsusilə Xəzərin səviyyəsinin enməsi artıq yalnız ekologiya mütəxəssislərinin müzakirə etdiyi məsələ deyil. Bu proses limanlara, gəmiçiliyə, balıqçılığa, sahil infrastrukturuna, turizmə və dəniz ekosisteminə təsir göstərə bilər. Azərbaycanda su ehtiyatları və iqlim dəyişiklikləri ilə bağlı problemlər beynəlxalq elmi ictimaiyyət tərəfindən fəal araşdırılır. 2026-cı ilin oktyabr ayında "Journal of Water and Climate Change" elmi jurnalında "Xəzər dənizinin Azərbaycan sektorunda iqlim meyilləri və onlarla əlaqəli atmosfer sirkulyasiyası indeksləri" adlı elmi məqalə dərc olunub. Müəlliflər Janar Naurozbayeva, Zaur İmrani və başqaları elmi araşdırmada Azərbaycanın Xəzər sektorunda 1981-2024-cü illər üzrə iqlim və su göstəricilərini təhlil ediblər. Tədqiqatda həmin dövrdə orta illik hava temperaturunun təxminən 1,6 dərəcə yüksəldiyi, 1991-2024-cü illərdə çayların ümumi axımının 1961-1990-cı illərlə müqayisədə 24 faiz azaldığı göstərilir. Müəlliflər sahil xəttinin geri çəkilməsi və su balansının dəyişməsi ilə bağlı ciddi nəticələrə diqqət çəkirlər. Xəzərin səviyyəsinin azalması bir neçə səbəbin qarşılıqlı təsiriylə bağlıdır: burada temperaturun yüksəlməsi nəticəsində buxarlanmanın artması, yağıntıların və çay axımının dəyişməsi, eləcə də hövzəyə daxil olan suyun miqdarı mühüm rol oynayır. Xəzər qapalı su hövzəsi olduğundan ona axan və ondan buxarlanan su arasındakı tarazlıq dəniz səviyyəsinə birbaşa təsir göstərir. Bu prosesin nəticələri təkcə sahil zolağının görünüşünün dəyişməsiylə məhdudlaşmır, limanların fəaliyyəti, gəmiçilik marşrutları, balıq ehtiyatları, sahilboyu yaşayış məntəqələri və sənaye infrastrukturu da risklə üzləşə bilər. Xəzər dənizinin səviyyəsinin azalması Azərbaycanla yanaşı Qazaxıstan, Rusiya, Türkmənistan və İran üçün də ortaq regional problemdir. Bu səbəbdən Xəzərin qorunması yalnız ekoloji məsələ kimi yox, regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq məsələsi kimi də nəzərdən keçirilməlidir.

COP29-dan COP31-ə: Azərbaycanın qarşısında hansı imkanlar var?

Azərbaycan 2024-cü ildə COP29-a ev sahibliyi etməklə beynəlxalq iqlim diplomatiyasının mərkəzində yer aldı. Bakı konfransı zamanı enerji saxlanması və elektrik şəbəkələri, yaşıl enerji zonaları və dəhlizləri, hidrogen enerjisi kimi istiqamətlərdə bir sıra təşəbbüslər irəli sürüldü. Bu təşəbbüslərin əsas məqsədi bərpa olunan enerji mənbələrinin inkişafını sürətləndirmək və ölkələr arasında yaşıl enerji əməkdaşlığını genişləndirmək idi. Azərbaycanın bu sahədə imkanları da az deyil: ölkənin bərpa olunan enerji mənbələri üzrə texniki potensialı quruda 135 giqavat, dənizdə isə 157 giqavat qiymətləndirilir. Bu potensialın iqtisadi baxımdan reallaşdırılması üçün investisiya, infrastruktur, elektrik şəbəkələri və texnologiya tələb olunur.

Azərbaycanın milli iqlim öhdəliklərində 2035-ci ilədək istixana qazı emissiyalarının 1990-cı illə müqayisədə 40 faiz azaldılması hədəfi müəyyən edilib. Bu məqsədin reallaşdırılması enerji istehsalının şaxələndirilməsini, bərpa olunan enerji layihələrinin genişləndirilməsini, sənayedə enerji səmərəliliyinin artırılmasını və nəqliyyat sistemində daha təmiz texnologiyaların tətbiqini tələb edir. Enerji keçidi ölkəmizin mövcud iqtisadi maraqları nəzərə alınmaqla həyata keçirilməlidir. Neft-qaz sektoru hələ də iqtisadiyyatın, ixracın və dövlət gəlirlərinin mühüm hissəsini təşkil edir. Buna görə də məqsəd bir sahəni qəfil dayandırmaq yox, iqtisadiyyatın gələcək dəyişikliklərə hazır olmasını təmin etməkdir. Enerji resurslarından gələn gəlirlərin bir hissəsinin yeni texnologiyalara, su infrastrukturuna, kənd təsərrüfatına və yaşıl sənayeyə yönəldilməsi uzunmüddətli dayanıqlıq baxımından əhəmiyyətlidir. COP29-un Azərbaycana verdiyi beynəlxalq təcrübə də bu istiqamətdə istifadə olunmalıdır. COP31-də müzakirə edilən iqlim maliyyəsi, uyğunlaşma, emissiyaların azaldılması və enerji keçidi məsələləri Azərbaycanın milli maraqlarıyla birbaşa bağlıdır.

İqlim böhranı gələcəkdə müharibələrə səbəb ola bilərmi?

İqlim dəyişikliyinin ən təhlükəli nəticələrindən biri onun mövcud sosial və siyasi problemləri daha da dərinləşdirməsidir. Su ehtiyatları azalanda kənd təsərrüfatı çətinliyə düşür. Məhsuldarlıq aşağı düşəndə ərzaq qiymətləri arta bilər. İş yerləri azalanda insanlar başqa ərazilərə köçməyə məcbur qala bilərlər. Bu proseslər zəif idarə olunan regionlarda sosial gərginliyi və siyasi qeyri-sabitliyi gücləndirə bilər. Lakin su və ərzaq qıtlığı, əhali artımı, yoxsulluq və zəif dövlət institutları bir araya gələndə mövcud münaqişələrin daha da mürəkkəbləşməsi mümkündür. Buna görə iqlim təhlükəsizliyi artıq yalnız ekoloqların deyil, müdafiə və xarici siyasət qurumlarının da gündəliyinə salınır. Transsərhəd çayların bölüşdürülməsi, su anbarlarının idarə olunması və kənd təsərrüfatı üçün su təminatı gələcəkdə dövlətlər arasında daha ciddi müzakirə mövzusuna çevrilə bilər. Bu baxımdan Cənubi Qafqazda su diplomatiyası, məlumat mübadiləsi və ortaq ekoloji monitorinq sistemləri xüsusi əhəmiyyət daşıyır.

İqlim böhranının həlli üçün texnologiyalar artıq mövcuddur. Günəş və külək enerjisi, enerji saxlama sistemləri, elektrik nəqliyyatı, ağıllı şəbəkələr, suya qənaət edən suvarma texnologiyaları, meşələrin bərpası və erkən xəbərdarlıq sistemləri real imkanlar yaradır. Problem bütün bu imkanların kifayət qədər sürətlə və geniş miqyasda tətbiq edilməməsindədir. Dövlətlər bir tərəfdən iqlim öhdəlikləri götürür, digər tərəfdən fosil yanacaq istehsalına və istifadəsinə davam edir. Beynəlxalq konfranslarda emissiyaların azaldılmasından danışılır, amma ölkələr iqtisadi maraqlarıyla ekoloji məsuliyyət arasında seçim etməkdə çətinlik çəkir. Zəngin dövlətlər maliyyə və texnologiya imkanlarına malikdir, lakin inkişaf etməkdə olan ölkələr həmin imkanlardan bərabər səviyyədə yararlana bilmir. Bu ziddiyyət aradan qaldırılmadan iqlim siyasətində ciddi nəticə əldə etmək çətin olacaq. Planetin temperaturu diplomatik bəyanatları gözləmir. Buzlaqlar beynəlxalq danışıqların yekun sənədini gözləmir. Quruyan çaylar növbəti COP konfransının başlanmasını gözləmir. İnsanların içməli suya, ərzağa və təhlükəsiz yaşayış mühitinə ehtiyacı var.

İqlim böhranı bəşəriyyətə çox sərt bir həqiqəti xatırladır: təbiətlə siyasi saziş bağlamaq mümkün deyil. Dövlətlər bir-biriylə danışıqlar apara, qərarları təxirə sala, öhdəlikləri dəyişə bilər, ancaq atmosferə buraxılan qazları sərhəddə tutub saxlamaq mümkün deyil. Bir ölkənin iqtisadi marağı üçün verilən qərarın ekoloji bədəlini başqa ölkənin uşaqları, fermerləri və gələcək nəsilləri ödəyə bilər. Dünya bu gün seçim qarşısındadır: ya iqtisadi inkişafı təbiətin imkanlarıyla uzlaşdıracaq, ya da qısamüddətli qazanc naminə gələcək nəsillərin yaşayacağı planetin təhlükəsizliyini riskə atacaq. Bəlkə də gələcəyin ən böyük faciəsi bəşəriyyətin başqa planetdə yaşamağa hazırlaşdığı halda öz planetində yaşamaq üçün zəruri şəraiti qoruya bilməməsindən doğacaq. İnsanlıq Marsa getmək üçün milyardlarla dollar xərcləyir, kosmosun dərinliklərini araşdırır, süni intellektlə yeni dünyalar qurmağa çalışır, amma yer üzündə içməli suyun, təmiz havanın və münbit torpağın qorunması naminə ortaq qərar verməkdə hələ də çətinlik çəkir. Bəlkə də bir gün kosmosa göndərdiyimiz aparat yad planetdə həyat izi axtardığı vaxt özümüzə belə bir sual verməli olacağıq: biz başqa dünyalarda dirilik suyu tapmağa çalışarkən yaşadığımız dünyanı, onun həyat qaynağını qorumağı niyə bacarmadıq?..



Kəramət Qənbərov,
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN




Şənbə üçün nəzm



Son duanla görüşdüm,
gəlmişdi ağ donunda...
...Xatirəm də qocalıb,
itiribdi huşunu.
Göz yaşımdan asmışam,
sənin son baxışını.
Payız doğan günəşəm,
Gülüşüm də üşüdür.
Dodaqlarım çəlikli,
öpüşüm də üşüdür...
Körpə qoyub getmişdim,
böyüdümü o ürək?
Aç qapını, gəlmişəm,
qapını döyür külək.

***



Öpür şəhidlərin dəmir yumruğundan,
öpür azad olunan Vətən torpağı...
Beləcə söykəyir,
söykəyir küləyə kürəyini
Üçrəngli Bayrağım!
Göz yaşları dərir nəfəsini,
Düşmən tapdağının nəbzi dayanır.
Bir ovuc qanla
Torpaq sürmə çəkir gözünə,
Yanağını, dodağını boyayır,
Vətən toy paltarını geyir əyninə,
Torpaq and içir öz ruhuna!
Bütün qəbirlərin işığı yanır...

***




Yorulur qatar səsi
ayaq üstə durmaqdan,
yorulur
özü özünü oyadan saat zəngi...
Əqrəbləri diz çökür
bir fotonun önündə,
və hönkürür baxışında
lal notların dua rəngi...
Qəfil bir lampa
nişan alır özünü uzaqdan;
tapşırır canını
çəlikli göz yaşlarının əynində...

***



Vurulma göy üzündən hər gələnə.
Vurulma, ağ rənglərin qibləsinə.
Kim bilir, uşaq, kim bilir,
bəlkə də Tanrının gülləsidi
bütün qar dənəcikləri?!
Kim bilir, uşaq, kim bilir,
bəlkə həmin güllələr
atılıb göy üzündən
yorğan olur,
yorğan olur bütün qaranlıqlara?!
Bəlkə də güllələyir
bütün qara rəngləri, ...kim bilir?!
Vurulma inanmadıqlarına,
İnandığın yerdən vurarlar bütün dualarını...
Vurulma, axşamüstüdü,
Qucaqla, qucaqla
gözlərindən hönkürdüyün
dilsiz itin dualarını...
...Amma vurulma!


***



Üşüdər gözlərini
uzaq bir pəncərədə hönkürən işıq.
Üşüdər - əynindəki tabut kimi...
Bir an titrədər kürəyini
yiyəsiz skamyaların soyuqluğu.

Tellərinə əl gəzdirər
quru söyüdün budağı.
Söykənərsən göz yaşına
fikirlərin qarışıq;
Unutdurar özünü
xatirələrdən sıçrayan
qəlpələrin çoxluğu.
Keçmişin atdığı mərmilər,
Qəfil isidər gözlərini...
Bir də baxarsan ki,
nəbzi vurmur ayaq izinin...
...Və
diz çöküb başdaşında
yoxluğun soyuqluğu.

***



Əllərim dil açır gecənin
içindən keçən tənha işığa.
Yalvarır o işığın kölgəsiz addımlarına ki,
öz doğum günündə güllələməsin
yanaqlarına əsir düşən payızı.
Əllərimin səsi eşidilmir bu gecə də,
çıxıb gedir o tənha işıq,
çıxıb gedir
payızın sonuncu doğum gününə sarı.
...Və günəşin dirijorluğunda
yıxılır bütün küləklər
Ay işığının boynundan asılan
edam kötüklərinə tərəf...
O an dili tutulur ovuclarımın,
unudur gecə işıqlarına söykənən
bütün and yerlərini.
Silinir,
silinir əllərimin yaddaşından
bütün müqəddəslər...

Tural Turan

Məktub yazma, ağ kağıza gülümsə,
Göndər mənə, biləcəyəm halını...
Hər gedişin qayıdışı ölümdü,
Yorulanda gözləyirəm yolunu.
Ağ şərfini saxlayıram hələ də,
Boynuna doladım hər xatirənin.

Yorğanı çək, bax, üşüyür ayağı,
Mənsiz yatammayan bir xatirənin...
Yuxunu söndür gəl, lap ölümsayaq,
Südü bitən ağrı bəlkə kiriyə...

İçimdə adını çəkmişdim bayaq,
Divarda şəkilin döndü geriyə...
Payız da bu gecə yorğun, əsəbi,
Sənli xatirələr gözümdən axır.
Səsinə inanmır saat əqrəbi,
Sənmi gəldin - deyə qapıya baxır.

***

Bir siqaret tüstüsündən asıram özümü,
Yıxılıram ovcumdan üzüaşağı...
Öpüb alnıma qoyuram ayaq izimi,
Mən - alın yazısını güllələyən
bir payız uşağı.
32 yaş...
Bütün pəncərələrdə öz işığını axtarır
kölgəm.
Gülər üzlü yanaqlar həm Vətənim,
həm ölkəm...
Bir təndir çörəyinin qoxusunda
dəfn edirəm ilk məhəbbətimin
qorxusunu.
Addımlayıb yaşayıram
baxışları axsaq bir ömrün yuxusunu.
Qəbrimə salam göndərirəm
yasəmən qoxusuyla,
Deyirəm, ağ bayrağımı
geyinib gələcəm,
Hələ ki təslim olmaq istəmirəm,
Bütün təbəssümümlə döyüşəcəyəm,
tanrıyla...
Hələlik, kamikadzem, hələlik 32 yaş.
Get, öldürmə,
Qəbrimə göndərdiyim
o biri yaşlarımla qucaqlaş...

***

Körpə qoyub getmişdim,
böyüdümü o ürək?
Aç qapını, gəlmişəm,
qapını döyür külək.
Gileylənmə ki, gülüm,
bəxtinin dişi düşüb.
Bir bax mənə: gözümün
gözünə işi düşüb...
Xatirən şam yandırır
hər yuxunun sonunda...

Çin hekayələri

Yüz il sonrakı insanın ruhunu "kəşf etməyə" çalışıb.



Məqsəd Nur

On bir Çin yazıçısı "COVID-19"un yayılmağa başladığı vaxtdan yüz il sonranı qələmə alıb. Ortaya çıxan mənzərə qəribə, maraqlı, bir az acınacaqlı, bir az da təəccüblü, hətta ümidvericidir. Axı Ədəbiyyatın hissetmə sensorları uzaqgörəndir...

On bir yazıçının arasından cəmi bir neçə müəllif yüz il sonranı təsəvvür etməyə çalışarkən yeni bir virusun yarada biləcəyi vəziyyəti hiss etməyə üstünlük verib. Qalanlar iqlim dəyişikliyi, yeni ixtiralar və kəşflərin insanların həyat tərzini necə dəyişdirə biləcəyinə diqqət yetirib.

Çinin qorxu janrında (horror writer. ing.) yazan ən məşhur müəllifi Çjou Dedunun "Mən fərqli bir dünya istəyirəm" əsəri isə xüsusi diqqət çəkib. Əsərin qəhrəmanı Sü Çjı yaşlı bir kişidir. Şanxayda yaşayan bu kişi 2019-cu ildə, karantinin ilk günlərindəcə öz mənzilindən çıxır və bir daha geri dönmür. Müəllif isə öz qəhrəmanını 2119-cu ildə, yeni ixtiraların köməyi ilə tapmağa çalışır. Belə ki, alimlər yüz il əvvəl mövcud olmuş bioloji insan növünün bədən istiliyinin izlərinə düşərək, hərarət vasitəsilə Sü Çjını tapmağa və onun hərəkət trayektoriyası barədə məlumat toplamağa səy göstərirlər. Sən demə, qoca Sü Çjı yüz il əvvəl, 2019-cu ildə, pandemiyanın ilk günlərindəcə xəstəxanaya yerləşdirilən həyat yoldaşının yanına gedib çatmaq üçün çanfəşanlıq göstərib və bu zaman güclü emosional zərbələr alıb. Yazıçı demək istəyib ki, dünyada çox şey dəyişəcək, güclü tərəqqi olacaq, amma nə olursa olsun, yüz il sonra da yaxınlarınızdan, sevdiyiniz insanlardan, xatirələrinizdən ayrılmağın ağrısı dəyişməyəcək.

Görəsən, nə üçün əksər Çin müəllifləri iqlim dəyişikliyi problemlərinə, yeni ixtira və kəşflərin insanların həyat tərzini necə dəyişdirə biləcəyinə diqqət yetiriblər? Qoca Sü Çjının mənəvi əzabları niyə digər mətnlərdən fərqli olaraq daha çox diqqət çəkib? Bəlkə ondan ötrü ki, gələcəyi tamam başqa cür təsəvvür etmək belə, insanı xoflandırır? Bəlkə ədəbiyyata müraciət edib demək istəyirik ki, bizə kömək et, elə et ki, olub-qalanlarımızı itirməyək? Bəlkə də yeni yaranan hər ümidverici mətn bir duadır? Görəsən, hissetmə sensorlarımız itirə biləcəklərimizi Ədəbiyyatın gözü ilə görmək istəyərkən, həm də bu böyük itkinin növbəti, "daha maraqlı"seriyasına baxmaq həvəsi ilə alışıb yanmır ki?

Yeri gəlmişkən, qlobal əhəmiyyətli, tarixi görüşün keçirildiyi Şençjen şəhərinin ən nüfuzlu yazıçısı da elmi fantastika üzrə dünyaca məşhur müəllif Hai Yadır...

Ədalətə aparan məsuliyyətli xidmət

Cəmiyyətin inkişafını yalnız qurulan binalar, həyata keçirilən iqtisadi layihələr və əldə olunan sosial nailiyyətlərlə ölçmək olmaz. Həm də insanların qanuna inamı, hüquqlarının qorunması, ədalətə çıxış imkanları bu inkişafın mühüm göstəricilərindəndir. Bütün bunların təmin olunmasında isə ədliyyə sisteminin üzərinə mühüm və məsuliyyətli vəzifələr düşür. Qanunun möhkəmləndirilməsi, hüquqi dövlət prinsiplərinin qorunması və vətəndaş məmnunluğunun təmin edilməsi naminə çalışan ədliyyə işçiləri noyabrın 22-də peşə bayramlarını qeyd edirlər.

22 noyabr - Ədliyyə işçilərinin peşə günüdür

Tarixin müəyyən etdiyi əlamətdar gün

Azərbaycan ədliyyəsinin zəngin tarixi 1918-ci il noyabrın 22-dən - Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Ədliyyə Nazirliyinin Əsasnaməsini təsdiq etdiyi gündən başlayır. Bu tarix müasir dövlətçilik tariximizdə hüquqi idarəetmənin formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır. Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə noyabrın 22-si ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilib. Beləliklə, bir əsrdən artıq inkişaf yolu keçən Azərbaycan ədliyyəsi dövlətçilik ənənələrinin qorunmasında mühüm institutlardan birinə çevrilib.

Vətəndaşa yaxın, əlçatan hüquqi xidmətlər

Ədliyyə sisteminin gündəlik həyatımıza təsiri yalnız məhkəmə və qanunvericiliklə məhdudlaşmır. Notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, hüquqi maarifləndirmə, məhkəmə qərarlarının icrası və digər xidmətlər insanların müxtəlif həyat mərhələlərində ehtiyac duyduğu mühüm mexanizmlərdir.

Bu sahələrdə elektron xidmətlərin genişləndirilməsi və prosedurların sadələşdirilməsi vətəndaşların vaxtına qənaət edir, bürokratik maneələri azaldır. Eyni zamanda, hüquqi məlumatların elektron resurslar vasitəsilə əlçatan olması insanların qanunvericiliklə tanışlığını və hüquqi biliklərini artırır. Əsas məqsəd isə hüququn yalnız kağız üzərində deyil, hər bir vətəndaşın gündəlik həyatında real təminat vasitəsinə çevrilməsidir.

İslahatlar və müasirləşən ədliyyə sistemi

Müstəqillik dövründə ölkədə aparılan hüquqi islahatlar ədliyyə sisteminin fəaliyyətinə də yeni məzmun qazandırıb. Xüsusilə, son illərdə idarəetmənin təkmilləşdirilməsi, şəffaflığın artırılması, hüquqi xidmətlərin əlçatanlığının genişləndirilməsi və vətəndaşların müraciətlərinə çevik münasibətin formalaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Ədliyyə Nazirliyinin fəaliyyətində rəqəmsal transformasiya bu dəyişikliklərin əsas istiqamətlərindən biridir. Nazirliyin məlumatına görə, 40-dan çox rəqəmsal alət və həll, informasiya sistemi və portal yaradılıb. Yenilənmiş "Elektron icra" sistemi və istifadəyə verilən "Mobil icra" tətbiqi icra prosesinin daha şəffaf və operativ təşkilinə, vətəndaşların işlərinin gedişini elektron qaydada izləməsinə imkan yaradır. Bu yeniliklər insan amilindən asılılığı azaltmaqla yanaşı, dövlət xidmətlərinin keyfiyyətini də yüksəldir.



Peşəkarlıq, məsuliyyət və gələcəyə baxış

Güclü ədliyyə sisteminin təməlində, ilk növbədə, savadlı, prinsipial və peşəkar kadrlar dayanır. Bu baxımdan gənc hüquqşünasların hazırlanması, kadr potensialının gücləndirilməsi, peşəkar inkişaf və etik davranış prinsiplərinin təşviqi xüsusi əhəmiyyət daşıyır. Ədliyyə Akademiyasının fəaliyyəti, qulluğa qəbul prosesinin təkmilləşdirilməsi və əməkdaşların bilik və bacarıqlarının artırılması bu istiqamətdə görülən işlərin mühüm hissəsidir.

Bu gün Azərbaycan ədliyyəsi qarşısında dayanan əsas vəzifə əldə olunan nəticələri qorumaqla yanaşı, müasir çağırışlara uyğun daha çevik, şəffaf və səmərəli sistem qurmaqdır. Rəqəmsallaşma, innovativ idarəetmə, hüquqi maarifləndirmə və insan hüquqlarının etibarlı müdafiəsi bu yolun əsas istiqamətləridir.

Yeganə BAYRAMOVA

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4308
Sifariş: 1529
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova